

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Hərb tariximizdə imzası olan böyük Sərkərdə



11

# İnkişaf edən, güclənən AZƏRBAYCAN!



2

İLHAM ƏLİYEV: "Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir"

SƏS

№ 067 (6750)

19 aprel 2023-cü il.
Qiyməti 60 qəpik

# Xəyanətkarların QORXU KOMPLEKSİ



7

## Türkiyədə daha şanslı




5

## "Ermənistan boş vədlər naminə öz suverenliyini itirir"



15

## Abidələr ölkəsindən danışaq...



9



16

## Neftin 88 dollara düşməsi ölkə iqtisadiyyatına necə təsir edir?

## Repetitorluq ləğv edilsə nələr baş verər?



16

# İnkişaf edən, güclənən AZƏRBAYCAN!

## İLHAM ƏLİYEV: "Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir"



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Neftçala və Salyan rayonlarına səfər ediblər

Bu gün bölgələrin yüksəlişi sahəsində uğurla reallaşdırılan dövlət proqramları ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, sosial infrastrukturun keyfiyyətinin artırılmasına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına təkan verib.Prezidenti İlham Əliyevin bölgələrə ardıcıl səfərləri, hər səfərindən sonra həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə Tədbirlər Planını təsdiqləməsi, Prezidentin Ehtiyat Fondundan vəsaitlərin ayrılması və s. kimi mühüm tədbirlər həm ölkənin hərtərəfli inkişafına, həm də xalqın sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən addımlardır. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlayan və bu istiqamətdə kompleks tədbirlər həyata keçirən Prezident İlham Əliyevin verdiyi tapşırıqların icrasını mütəmadi olaraq şəxsən yoxlaması və bölgələrin təkmil konsepsiyanın icra vəziyyəti ilə bağlı hər il xüsusi müşavirələr keçirməsi bir daha təsdiq edir ki, regionların inkişafı dövlət başçısının fəaliyyətində prioritet təşkil edir.Ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında əksini tapmış vacib istiqamət insan amilinə xidmət etməklə yeni sosial-infrastruktur obyektlərinin - təhsil, mədəniyyət, səhiyyə, rabitə müəssisələrinin tikintisini, yeni yolların çəkilməsini və əsaslı bərpasını nəzərdə tutur. Onu da vurğulamaq lazımdır ki, bölgələrdə aparılan işlərə nəzarəti Prezident İlham Əliyev bilavasitə özü aparır. Məhz bunun üçün də dövlətimizin başçısının bölgələrə səfərləri müntəzəm xarakter daşıyır. Belə ki, Prezident İlham Əliyevin aprelin 18-də Neftçala-Salyan rayonlarına səfəri də bu qəbildəndir.

### VERİLƏN VƏDLƏR, REAL NƏTİCƏLƏR...

Qeyd edək ki, Prezident İlham Əliyevin bölgələrə hər bir səfəri insanların qayğı və problemlərinə həssas münasibətin nümayişinə çevrilir. Bütün bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin, nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Ötən illər ərzində ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi bütün vədləri yerinə yetirən dövlətimizin başçısı İlham Əliyev hər bir addımda vətəndaşların mənafeyi əsas amillərdəndir. Belə ki, aprelin 18-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Neftçala rayonuna səfər ediblər. İlk öncə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Neftçala şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər və xatirəsini ehtiramla anıb, abidəsi önünə gül dəstələri qoyublar.

Həmçinin, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Neftçala Olimpiya İdman Kompleksinin, Neftçala-Kürkənd-2 nömrəli Mayak avtomobil yolunun və Neftçalada Heydər Əliyev Fondu tərəfindən inşa olunan 420 şagird yerlik Bankə qəsəbə 2 saylı tam orta məktəbin açılışında iştirak ediblər.Həmçinin, elə həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Salyan rayonuna səfər ediblər.Dövlətimizin başçısı və birinci xanım Salyan şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər, xatirəsini ehtiramla anıb, abidəsi önünə gül dəstələri qoyublar.Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Salyan Rayon Mərkəzi Xəstəxanasının 80 çarpayılıq Doğum Evində və Uşaq Poliklinikasında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olublar. Eyni zamanda, Prezident İlham Əliyev aprelin 18-də "Azərişıq" ASC-nin Salyan Rəqəmsal İdarəetmə Mərkəzinin, Salyanda "ASAN xidmət" Mərkəzinin açılışını edib.Sonra dövlətimizin başçısı Azərbaycan Televiziyasına müsahibə verib.




### MƏNİM DƏ BÖLGƏLƏRƏ SƏFƏRLƏRİM HƏM NƏZARƏT ÜÇÜN BİR VASİTƏDİR

Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində bildirib ki, bölgələrinin ümumi inkişafının sosial xarakter daşımaqla yanaşı, həm də ölkəmizi gücləndirir. Bu işlərin davam etdirildiyini və hazırda 4-cü Dövlət Proqramının icra olunduğunu vurğulayan Azərbaycan Prezidenti bildirib: "Mənim də bölgələrə səfərlərim həm nəzarət üçün bir vasitədir, yəni, verdiyim tapşırıqlar necə yerinə yetirilir, eyni zamanda, növbəti tapşırıqlar, tövsiyələr verilir ki, bölgələrdə bizim bəyan etdiyimiz bütün hədəflər təmin edilsin, ilk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması. Bir sözlə, Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir".

### "ASAN XİDMƏT" BİZİM İNTELLEKTUAL MƏHSULUMUZUN BİR NÜMUNƏSİDİR

Bu gün "ASAN xidmət" dünyada tanınan ən mütərəqqi Azərbaycan brendi kimi tətbiq edildiyi bütün sahələrdə tam şəkildə özünü doğrultmuş kreativ layihədir. Təsadüfi deyil ki, vətəndaş məmnunluğunun təmin edilməsində ən yüksək göstəricilərə malik olan "ASAN xidmət"in təcrübəsi qonşu ölkələrdə tətbiq olunur, onun fəaliyyət metodları Avropa ölkələrində böyük maraqla qarşılanır.

Ardı Səh. 3

Əvvəli Səh.2

Ona görə də insan amilinin böyük önəm daşıdığı Azərbaycanda bu sahənin inkişafı və tətbiq sahəsinin genişləndirilməsi ilə bağlı Prezident İlham Əliyevin təşəbbüsü tamamilə məntiqli və qanunauyğun olmaqla ölkəmizdə insan hüquqlarının qorunması və dövlət quruculuğu sahəsində daha yüksək nəticələrin əldə olunmasını və müasir, sivil vətəndaş cəmiyyətinin formalaşmasını hədəfləyir.Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda "ASAN xidmət" mərkəzinin açılış mərasimindən sonra Azərbaycan Televiziyasına müsahibəsində bildirib ki, "ASAN xidmət" sistemi bu gün dünyada artıq Azərbaycan brendi kimi tanınır. Və "ASAN xidmət" mərkəzlərində göstərilən xidmətlər əhali tərəfindən rəğbətlə qarşılanır və bəyənmə əmsalı 99,8 faizdir.Salyan rayonunda açılışı olan "ASAN xidmət" mərkəzinin sayca 25-ci mərkəz olduğunu vurğulayan dövlətimizin başçısı bildirib: "Dünyada artıq ASAN modelini bir neçə ölkə tətbiq edir. Biz bu ölkələrə metodik dəstək veririk. Son illər ərzində, yəni, 10 il ərzində 61 milyon müraciət olmuşdur. Yəni, bu xidmətin yaradılması faktiki olaraq ictimai xidmətlər sahəsində bir inqilab idi, bir dönüş nöqtəsi idi və hazırda 300-dən çox xidmət göstərilir. Beləliklə, "ASAN xidmət" bizim, o cümlədən intellektual məhsulumuzun bir nümunəsidir və eyni zamanda, biz artıq intellektual məhsul ixrac edirik".




yıb: "Bizim əsas məqsədimiz məcburi köçkün soydaşlarımızı doğma yurd-yuvalarına qaytarmaq və orada onların əvvəlkindən də yaxşı şəraitini təmin etməkdir". Prezident İlham Əliyev hələ 2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində ilk görüşünü Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə keçirərkən bir dənə də olsun çadır düşərgəsinin qalmayacağını bəyan etmişdi. Artıq bu gün bir çadır düşərgəsi yoxdur. İndiyədək 300 minə yaxın qaçqının və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Prezident İlham Əliyevin rəhbərliyi altında yaşanan sürətli inkişaf, məşğulluq, sosial problemlərin effektiv həlli qaçqın və məcburi köçkünlərin üzləşdikləri çətinliklərin böyük miqyasda aradan qalxmasına rəvac verib. Bəli, artıq qaçqın və məcburi köçkünlər əmindirlər ki, onlar sözü imzası qədər dəyərli keçərli olan Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət sayəsində doğma yurdlarına qayıdacaqlar. O gün uzaqda deyil.Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində də köçkünlərin vaxtından əvvəl

# İnkişaf edən, güclənən AZƏRBAYCAN!

## İLHAM ƏLİYEV: "Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir"

### QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA GÖRÜLMÜŞ İŞLƏR BİR DAHA GÖSTƏRİR Kİ, BİZ - BU TORPAQLARIN SAHİBLƏRİ DƏDƏ-BABA






### TORPAQLARIMIZA QAYITMIŞIQ

Bu gün qalib ölkənin qalib Prezidenti qələbədən sonra həm işğaldan azad olunmuş torpqlarımızdı, həm də regionlarımızda böyük bərpa və quruculuq işlərini həyata keçirir.Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində də bir daha vurğulayıb ki, hazırda Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsi məsələsi bizim üçün əsas prioritetdir və mənim bölgələrə səfərlərimin əksəriyyəti məhz o bölgələrə olan səfərlərdir.Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-yenidənqurma işlərinin plana üzrə getdiyini vurğulayan dövlətimizin başçısı bildirib: "Qarabağ və Şərqi Zəngəzurda görülmüş işlər bir daha onu göstərir ki, biz - bu torpaqların sahibləri öz doğma dədə-baba torpaqlarımıza qayıtmışıq. Otuz il ərzində Ermənistan bu torpaqları viran qoyub, daş-daş üstə qoymayıb, talançılıq və soyğunçuluqla məşğul olub, barbarlıqla məşğul olub. Biz - bu torpaqların sahibləri isə gəlmişik qurmaq üçün, yaratmaq üçün. Ona görə müharibə başa çatan kimi dərhal artıq işə start verilmişdir".

Artıq iki yaşayış məntəqəsində - Ağalı və Talış kəndlərində keçmiş köçkünlərin hazırda yaşadıqlarını vurğulayan Prezident İlham Əliyev bildirib: "Biz bu kəndlərin timsalında bütövlükdə gələcək Qarabağın və Şərqi Zəngəzurun simasını görürük - abad şəhərlər, abad kəndlər, ağıllı idarəetmə prinsipləri əsasında yaradılan infrastruktur. Yəni, bütün bunlar göz qabağındadır. Yenə də deyirəm, bu iki layihə artıq bütün Azərbaycan əhalisinə və bütün dünyaya göstərir ki, gələcək Qarabağın və Şərqi Zəngəzurun siması necə olacaq".

### BÜDCƏYƏ ƏLAVƏLƏR ƏN AZI 3 MİLYARD MANAT SƏVİYYƏSİNDƏ OLACAQ

"Bütövlükdə, hesab edirəm ki, büdcəyə əlavələr ən azı 3 milyard manat səviyyəsində olacaq. Bunun əsas hissəsi Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında istifadə ediləcək".Bunu Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində deyib."İkinci yerdə bizim hərbi xərclərimiz olacaq. Çünki buna da böyük ehtiyac var. Dünyada gedən prosesləri hər kəs izləyir. Dünyada təhdidlər artır, təhlükələr artır. Düzdür, biz İkinci Qarabağ müharibəsində düşmənin başını əzərək möhtəşəm Qələbə əldə etmişik. Ancaq Ermənistanda revanşist qüvvələr yenə baş qaldırır, biz istənilən vəziyyətə hazır olmalıyıq və elə bir ordu yaratmalıyıq ki, dünya miqyasında nümunəvi olsun və ən güclü ordulardan biri olsun. Bu gün də Azərbaycan Ordusu güclüdür", - deyə dövlətimizin başçısı vurğulayıb.

### KEÇMİŞ KÖÇKÜNLƏRİ LAÇIN ŞƏHƏRİNƏ VAXTINDAN ƏVVƏL QAYTARACAĞIQ

Qaçqın və köçkünlərin hamisi Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulaöz dədə- baba yurdlarına qayıdacağını deyib: "Keçmiş köçkünlər Laçın şəhərinə vaxtında əvvəl qaytarılacaq". Dövlətimizin başçısı qeyd edib: "Mən bir müddət bundan əvvəl demişdim ki, biz keçmiş köçkünləri bu ilin sonuna qədər Laçın şəhərinə qaytaracağıq. Bax, bu gün tam əminliklə deyə bilərəm ki, biz yay aylarında artıq buna nail olacağıq. Yəni, biz bu işi vaxtından tez görürük".Dövlətimizin başçısı Laçın şəhərində inşa olunacaq fərdi evlərin sayını açıqlayıb: "Əgər birinci mərhələdə Laçın şəhərində 400-dən bir qədər çox evin inşasını nəzərdə tuturduqsa, son məlumata, son planlarımıza görə, ancaq fərdi evlərin sayı 570 olacaq".Prezident İlham Əliyev onu qeyd edib ki, eyni zamanda 140-dan çox mənzil hazır olacaqdır. Yəni, beləliklə, 700-dən çox ailəni biz bu ilin yay aylarında Laçın şəhərində yerləşdirəcəyik.Qanunsuz olaraq məskunlaşma siyasəti aparılan Zabux və Sus kəndlərində işlərin getdiyini vurğulayan Azərbaycan Prezidenti deyib ki, o kəndlərə keçmiş köçkünlər ilin sonuna qədər qaytarılacaq.

Ardı Səh. 4





Əvvəli Səh.3

# İnkişaf edən, güclənən AZƏRBAYCAN!

## İLHAM ƏLİYEV: "Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir"

### YAXIN ZAMANLARDA ŞUŞADA İKİNCİ BÖYÜK YAŞAYIŞ KOMPLEKSİNİN TƏMƏLİ QOYULACAQ

Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində bildirib ki, Şuşa şəhərində birinci yaşayış kompleksi uğurla inşa edilir. Biz ikinci böyük yaşayış kompleksinin, yəni, bir çox evlərdən ibarət layihənin təməlini yaxın zamanlarda qoyacağıq.Dövlətimizin başçısı, həmçinin deyib ki, Ağdam, Füzuli, Zəngilan şəhərlərində yaşayış binalarının inşası plan üzrə gedir, Kəlbəcər və Cəbrayıl şəhərlərində isə buna hazırlıq işləri görülür.

### ERMƏNİSTAN QƏBUL EDİB Kİ, İKİ ÖLKƏ ARASINDA SƏRHƏDLƏR ALMA-ATA BƏYANNAMƏSİ ƏSASINDA HƏLL OLUNMALIDIR

Prezident İlham Əliyev müsahibəsində səsləndirib ki, sülh müqaviləsinin imzalanması ilə əlaqədar Ermənistan tərəfinin mövqeyində son iki il ərzində müxtəlif ziqzaqlar olub, yəni, müxtəlif dəyişikliklər olub.Dövlətimizin başçısı deyib ki, Ermənistan da prinsip etibarilə bizim yanaşma ilə razıdır. Çünki başqa variant da yoxdur. Məhz buna görə keçən ilin oktyabr ayında Praqa və Soçi görüşlərində Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Yəni qəbul edib ki, Azərbaycan ilə Ermənistan arasında sərhədlər - 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında həll olunmalıdır.

### ERMƏNİSTAN ARTIQ RƏSMƏN BƏYAN ETMƏLİDİR Kİ, QARABAĞ AZƏRBAYCANDIR!

Artıq iki ildir ki, "Qarabağ Azərbaycandır və nöqtə". Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində də bir daha Ermənistana və ona havadar olanlara növbəti mesajını verdi: "Vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan bu gün "Qarabağ Azərbaycandır və nida" sözlərimizi təkrar etməlidir!"."Çünki əgər "A" deyibsə, "B" də deməlidir. Alma-Ata Bəyannaməsini əsas götürüb bunun üzərində sülh müqaviləsinə hazır olduğunu göstərən Ermənistan artıq rəsmən bəyan etməlidir ki, Qarabağ Azərbaycandır!", - deyə dövlətimizin başçısı qeyd edib.Dövlətimizin başçısı onu da bildirib ki, Qarabağdakı ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməli, ya da özləri üçün başqa yaşayış yeri tapmalıdırlar: "Biz dəfələrlə bəyan etmişdik ki, daxili işlərimizi heç bir ölkə ilə müzakirə etməyəcəyik. Qarabağ bizim daxili işimizdir".Dövlətimizin başçısı bildirib ki, Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da özləri üçün başqa yaşayış yeri tapmalıdırlar: "Burada tam sərbəstlik var, bütün demokratik əsaslar təklif olunur. Bu məsələ insan hüquqları əsasında öz həllini tapmalıdır.







### HEÇ KİMƏ İMKAN VERMƏRİK Kİ, BİZİM ƏRAZİMİZDƏ KİMSƏ AT OYNATSIN

"İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində Ermənistan, onun havadarları və eyni zamanda, ona dəstək verən ölkələr və qüvvələr bizim iradəmizi, qətiyyətimizi, gücümüzü əyani şəkildə görüblər".Bu fikirləri Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində səsləndirib.Bu iki il yarım ərzində həm Azərbaycan-Ermənistan dövlət sərhədi istiqamətində, eyni zamanda, Rusiyanın müvəqqəti qaydada yerləşdirilmiş sülhməramlı qüvvələrinin nəzarətində olan bölgədə bir çox önəmli hadisələrin baş verdiyini deyən dövlətimizin başçısı vurğulayıb: "Biz dəfələrlə göstərmişik ki, bu torpaqların sahibləri bizik və heç kimə imkan vermərik ki, bizim ərazimizdə kimsə at oynatsın".

### "Hər birimiz - Türk dünyasının hər bir övladı, bax, Cansu və Qəmzə kimi olmalıdır"

Prezident İlham Əliyev müsahibəsində bu günlərdə İrəvanda keçirilən çempionatda Türkiyədən olan qadın idmançıların - Cansu və Qəmzəni qızıl və gümüş medallar qazanmasına və bu qələbəni Azərbaycana həsr etdikləri ilə də bağlı bildirdi ki, Mehriban xanım və mən əziz qızlarımız Cansu və Qəmzəni təbrik etdik: "Birinci, ona görə ki, onlar Ermənistanda - düşmən dövlətdə, həm Azərbaycana, həm də Türkiyəyə əzəli düşmən olan dövlətdə bu böyük qələbəni əldə etdilər, Türk Bayrağını yüksəklərə qaldırdılar. Ermənilər bizim bayrağımızı yandırıblar, amma Türk Bayrağı orada dalğalanıb. Türkiyənin Dövlət Himnini səsləndirdilər. Türkiyənin Dövlət Himni elə səsləndi ki, orada oturan bütün düşmənlərin yəqin ki, qulağı batmışdı. Bu qələbəni onlar Azərbaycana, Azərbaycan xalqına həsr etdilər. Nə qədər gözəl bir hərəkətdir". Dövlətimizin başçısı onu da vurğulayıb ki, bu gün mən Neftçala Olimpiya Kompleksinin açılışında olarkən gənclər və idman nazirinə tapşırdım ki, bizim qızlarımızı mənim adımdan Azərbaycana dəvət etsin və onlar bizim qonağımız olsunlar: "Bu, bir daha bizim birliyimizi göstərir, Türkiyə-Azərbaycan birliyi, qardaşlığı sarsılmazdır. Biz birik və onlara ünvanlanan təbrik məktubunda da yazmışıq ki, Türkiyə Bayrağı olan yerdə biz də varıq və bütün Ermənistan onu gördü. Bir yaramaz bizim bayrağımızı yandırır, ertəsi gün qardaş Türkiyə dövlətinin şanlı bayrağı o düşmənlərin başının üzərində ucaldılır və onlar Türkiyənin Dövlət Himninə ayaq üstə qulaq asmağa məcbur olurlar".

Bir sözlə, Azərbaycan Televiziyasına müsahibəsində görülən və görüləcək işlərə bir daha diqqət yetirən dövlət başçımız bir daha gələcəyə nikbinliklə baxdığını ifadə etdi: "Hər birimiz - Türk dünyasının hər bir övladı, bax, Cansu və Qəmzə kimi olmalıdır. Mənim arzum budur". Beləliklə, dövlət başçısının regionlara hər səfəri sosial rifahın daha da inkişafına doğru atılan uğurlu addım olmaqla, ölkəmizin daha da inkişaf etməsinə, sosial rifahın yüksək səviyyəyə çatdırılmasına və iqtisadiyyatımızın güclənməsinə geniş imkanlar yaradır.

***RƏFİQƏ KAMALQIZI***

RAKURS

# Türkiyədə daha şanslı

Türkiyədə mayın 14-də keçiriləcək ümumi seçkilərin nəticəsini gənclər və hələ də qərar qəbul edə bilməyənlər müəyyən edəcək. Bu yaxınlarda keçirilən sosioloji sorğuya görə, Rəcəb Tayyib Ərdoğanın əsas rəqibi, müxalifət lideri Kamal Kılıçdaroğluya qalib gəlib, gəlməyəcəyi bu seçici kateqoriyasından asılı olacaq. Əlavə dəstək almaq üçün türk siyasətçilərinin müxtəlif üsullardan, o cümlədən xarici siyasət faktorundan istifadə etmə ehtimalları da var. İndi Türkiyə siyasətində hər şey bir aydan sonra keçiriləcək parlament və prezident seçkilərinə yönəldiyindən, kənar tədbirlərin keçirilmə ehtimalı da azalıb. Hətta Türkiyənin Xarici İşlər Nazirliyinin rəhbəri gözlənilmədən Ərdoğanın Putinin aprelin 27-də Türkiyədə gözlənildiyi barədə xəbəri də təsdiq etməyib.




Seçki kampaniyası finiş xəttinə yaxınlaşır. Aprelin 11-də ölkənin Ali Seçki Komissiyası parlament seçkilərində iştirak etmək üçün namizədlərin müraciətlərinin qanunvericiliyə uyğunluğuna baxılmasını başa çatdırıb. Seçkiqabağı siyahılar tərtib edilib. Parlament uğrunda əsas mübarizə müxalifətdəki ”Altılı Masa” adlandırılan blokla hakim Ədalət və İnkişaf Partiyasının (AKP) rəhbərlik etdiyi arasında gedəcək. Buna uyğun olaraq, prezident seçkilərində iki əsas namizəd var. Bunlar ”Altılı Masa”nın lideri Kılıçdaroğlu və prezident Ərdoğandır.





”Hürriyet” qəzeti ötən həftə ölkənin ən nüfuzlu sosioloji xidməti ”Optimar”ın keçirdiyi yeni sorğunun nəticələrini dərc edib. Onun sözlərinə görə, belə çıxır ki, hər iki siyasətçinin şansları təxminən bərabərdir, amma Ərdoğanın şansları bir az daha çoxdur. Respondentlərin 45,9%-i ona səs verəcək. Kılıçdaroğlu üçün - 43,9%. ”Optimar”ın sorğularına görə, ikinci aydır ki, əsas namizədlər arasındakı uçurum getdikcə dərinləşir. Ancaq məlumdur ki, Ərdoğanın yenə də qalib gələcəyinə inanan türklərin faizi ona səs verəcəklərdən qat-qat çoxdur. 53,4% onun yenidən seçiləcəyinə əmindir. Amma yalnız 42,1% Qılıçdaroğlunun qələbəsinə inanır. Eyni zamanda, bütün sosioloji xidmətlər, hətta namizədlərdən birinə açıq rəğbət bəsləsələr də, qərarsız seçicilərin çox olması və bu seçkilərdə gənclərin fəallığının həmişə olduğu kimi yüksək olacağı ilə razılaşırlar. Bütün bunlar səsvermənin nəticəsini gözlənilməz edir.

Seçkiqabağı rakursdan indi Türkiyə rəsmilərinin bəyanatlarını və hərəkətlərini - xüsusən də Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun A-Haber telekanalına verdiyi sensasion müsahibəni nəzərdən keçirməyə dəyər. Türkiyənin özündə və təbii ki, ölkənin qərb qonşusunda ən çox Türkiyə Xarici İşlər Nazirliyinin rəhbəri tərəfindən Yunanıstana qarşı edilən hücuma diqqət yetirilir. O, bir daha xatırladıb ki, Egeydə ”müəyyən müddətsiz suverenliyə malik” mübahisəli ərazilər var. Türkiyədə baş verən zəlzələdən sonra iki ölkənin səlahiyyətliləri bir-birinə hücum etməkdən çəkinməyə söz verib. İndi ”zəlzələ diplomatiyası” bitdi. Ərdoğan bir çoxları qərarsız olan, xarici siyasətdə sərt xətt tərəfdarı olan millətçi türklərin səsləri üçün mübarizə aparır. Ona görə də Yunanıstana qarşı yumşaqlıq nümayiş etdirmək istəmir.

Amma Türkiyə lideri də əsas müttəfiqi ABŞ-ı bir daha qəzəbləndirmək istəmir. Yəqin ki, Çavuşoğlunun müsahibəsinin Rusiyada ən böyük rezonansa səbəb olan hissəsi bu faktın etirafı kimi dəyərləndirilməlidir. Nazir bildirib ki, ”Hazırda nə Ərdoğanın Rusiya Federasiyasına, nə də Putinin Türkiyəyə səfəri nəzərdə tutulmur”. Bu, martın sonunda Rusiya prezidentinin də ”Akkuyu” AES-in açılışı üçün aprelin 27-də Türkiyəyə ”gələ biləcəyini” deyən rəsmi dairələrin açıqlamaları ilə uyğun gəlmir. Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov çərşənbə axşamı açılış mərasimində Rusiya nümayəndə heyətinə kimin rəhbərlik edəcəyi ilə bağlı daha sonra məlumat verəcəyi vədi ilə kifayətləndi. Amma Çavuşoğlunun sözlərinə görə, Putinin Türkiyədə heç olmasa seçkilərə qədər gözlənilmir. Nəzərə alsaq ki, aprel ayında Amerika səfirinin Kılıçdaroğlu ilə görüşündən sonra Ərdoğanın ABŞ-la münasibətləri kəskinləşib, belə ehtiyatlılıq ən azı məntiqli görünür.

Müxalifət liderinin özü də yaxın vaxtlarda diqqətini bir çox problemlərin həllinə yönəldəcək ki, bunlardan da başlıcası ”Altılı Masa”nın vəhdətinin təmin edilməsi və müttəfiq axtarışıdır. Seçkilərdə həlledici səsi prezidentliyə namizədini irəli sürməyən kürd yönümlü Xalqların Demokratiya Partiyası (HDP) təmin edə bilər. Sorğuya görə, kürdlərin yaşadığı bölgələrdə seçicilərin təxminən 80%-i hələ də mövqelərini bəlli etməyiblər. Lakin HDP ona qarşı çıxsa, böyük ehtimalla kürdlər səs verməyəcək və Ərdoğan ikinci turda qalib gələcək. Qələbə üçün isə Kılıçdaroğluna bu partiyanın neytrallıqdan çıxması lazımdır. HDP ilə ittifaq seçiciləri qorxuda bilər. Seçkilərə qalan müddətdə Kılıçdaroğlunun bu çətin dilemmanı həll edəcəyi gözlənilmir.

Yenə deyirik, Türkiyədə seçkilərin taleyini xalq həll edir. Kiminsə səfəri, hansı dövlətinsə namizədlərdən birinin ”saqqızını oğurlamaq” niyyəti və arxada duran planlar bu vacib tədbirin mahiyyətini azalda və insanları ümidsiz hala sala bilməz. Türkiyənin rəqibləri də bilir ki, istənilən halda bu ölkədən bir vasitə kimi, haqq-hesab çürüdülən döyüş meydanı olaraq istifadə etmək ən böyük yanlışlıqdır.

***V.VƏLİYEV***

# “Polşa və Azərbaycan hər zaman dost ölkələrdir”

## Milli Məclisin sədri Sahibə Qafarova Polşa Prezidenti Andjey Duda ilə görüşüb

Dünən Milli Məclisin sədri Sahibə Qafarova Polşa Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Andjey Duda ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Prezident Andjey Duda Polşa ilə Azərbaycan arasında münasibətlərin səviyyəsindən razılığını bildirib. O, Polşa ilə Azərbaycanın hər zaman dost ölkələr olduğunu, gələcəkdə də bu münasibətlərin davam edəcəyini, münasibətlərimizin ilbəil daha da inkişaf etdiyini bildirib.

Prezident Andjey Duda, həmçinin Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdiyini vurğulayaraq, bu inkişafın yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. O, salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib.

Milli Məclisin sədri öz növbəsində Prezident İlham Əliyevin salamlarını Polşanın dövlət başçısına çatdırıb. Sahibə Qafarova bildirib ki, bu, onun Azərbaycan Milli Məclisinin sədri kimi Polşaya ilk səfəridir. Sahibə Qafarova bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə və genişlənməsinə kömək edəcəyinə inamını ifadə edib. Parlamentin sədri vurğulayıb ki, ölkələrimiz beynəlxalq təşkilatların işində fəal iştirak edir və bu əməkdaşlığın daha da inkişaf etdirilməsi hər iki ölkənin maraqlarına cavab verir.



İki ölkə arasında parlamentlərarası əlaqələrdən danışan Milli Məclisin sədri vurğulayıb ki, Azərbaycan ilə Polşa arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri də parlamentlərin qarşılıqlı fəaliyyətidir. Hər iki ölkənin parlamentində fəaliyyət göstərən qarşılıqlı dostluq qrupları, həyata keçirilən səfərlər parlament diplomatiyasının güclənməsinə xidmət edir.

Söhbət zamanı Sahibə Qafarova Azərbaycanın azad olunmuş ərazilərində apardığı genişmiqyaslı quruculuq və bərpa işləri, Ermənistanın regionda davamlı sülhün təmin olunmasına qarşı yönəlmiş təxribatçı hərəkətləri barədə də geniş məlumat verib. S. Qafarova deyib ki, Ermənistan üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozaraq, hələ də öz qoşunlarını Azərbaycan ərazilərindən çıxarmayıb. O cümlədən Laçın yolundan hərbi məqsədlər və qeyri-qanuni istismar etdiyi təbii sərvətlərimizin daşınması üçün istifadə edir. Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələrinin Laçın yolunda dinc aksiyası Ermənistanın bu qeyri-qanuni əməllərinə etiraz olaraq keçirilir. Lakin Ermənistan guya Laçın yolunun bağlanmasına dair yalan iddialarla beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Laçın yolundan 6 mindən çox avtomobilin keçməsi sübut edir ki, bu yol humanitar məqsədlər üçün açıqdır. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

**Otuz ildən artıq bir müddətdə Azərbaycan dövlətçiliyinin taleyi dahi və uzaqgörən şəxsiyyət, öz xalqını və Vətənini canından artıq sevən ən böyük azərbaycanlı, şərəfli adı bizim üçün həmişə əziz və unudulmaz olan Heydər Əliyevlə bağlı olub. Bu illər xalqımızın milli mənlik şüurunun oyanışı, azadlıq və müstəqillik hissinin güclənməsi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatının vüsətli dirçəlişi ilə əlamətdardır.**





# "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü"

## *Zaqatalada bu mövzuda tədbir keçirilib*

Bütün həyatını və siyasi fəaliyyətini böyük tarixi keçmişi və zəngin mədəniyyəti ilə fəxr etdiyi xalqının və Vətəninin tərəqqisinə həsr etmiş Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxaraq, ölçüyəgəlməz irəliləyişə nail olub. Bu fikirlər Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə aprelin 18-də Zaqatala şəhərində keçirilən "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda toplantıda səsləndirilib.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Milli Məclisin deputatı Kamilə Əliyeva, "Səs" Media Qrupun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev, ehtiyatda olan general-leytenant Ehram Hacıyev, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbər şəxsləri, ziyalılar, ictimaiyyətin nümayəndələri iştirak ediblər.



Toplantı iştirakçıları əvvəlcə Ulu Öndərin abidəsi önünə gül dəstələri düzüb, Heydər Əliyev Mərkəzi ilə tanış olub, dahi şəxsiyyətə həsr olunan sərgiyə baxıblar. Tədbirin əvvəlində Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ulu Öndərin xatirəsinə həsr olunmuş film nümayiş olunub.

Toplantıda rayon icra hakimiyyəti başçısının birinci müavini Tofiq Əhmədovun "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda məruzəsi dinlənilib. Qeyd olunub ki, bütün dövrlərdə ən ali örnək kimi qəbul ediləcək böyük vətəndaş, qüdrətli lider yalnız dövlətin tərəqqisi, müstəqil Azərbaycanın, onun vətəndaşlarının işıqlı və xoşbəxt gələcəyi naminə yaşayırdı. Həyatını xalqına fəda edən, "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" - deyən Heydər Əliyev Azərbaycanın son onilliklər ərzində qazandığı ən mühüm nailiyyətlərin şəriksiz müəllifidir.

Məruzədə vurğulanıb ki, Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yaranıb və milli dövlət quruculuğu, sabitliyin təmin edilməsi prosesi geniş vüsət alıb. Qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalət, demokratiya, hüquqi dövlət quruculuğu, dünyəvilik kimi ümummilli və ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulub. Heydər Əliyev bütün varlığı ilə sevdiyi Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, inkişaf etmiş, sivil dünya dövlətləri cərgəsinə çıxarmaq, arzusunda olduğu yeni Azərbaycanın reallaşması naminə var gücü ilə çalışıb.



Diqqətə çatdırılıb ki, Ulu Öndərin bənzərsiz dövlət xadimi kimi şöhrət qazanmasında hər şeydən əvvəl digərlərindən fərqli olaraq yüksək mənəvi, yaradıcı keyfiyyətlərə malik olması, təşəbbüskar və cəsarətli olması və həm də, onun xalq qarşısında duran mütərəqqi tələbatı düzgün müəyyən edərək, bütün fəaliyyətini dövlətin varlığına və onun durmadan inkişafına sərf etməsi olub. Tədbirdə çıxış edən Milli Məclisin deputatı Kamilə Əliyeva Ulu Öndər Heydər Əliyevin elm və təhsil sahəsində həyata keçirdiyi islahatlardan danışıb. Dahi Liderin xalqımız və dövlətçiliyimizin ən çətin zamanlarda hakimiyyətə gəldiyini və vacib sahələrin inkişafında bütün imkanları səfərbər etdiyini vurğulayıb.



Sonra "Səs" Media Qrupun rəhbəri Bəhruz Quliyev çıxış edərək Ulu Öndər Heydər Əliyevin şərəfli həyat yolundan danışıb, Azərbaycanın hərtərəfli inkişafı üçün həyata keçirdiyi böyük islahatlardan söz açıb. Bildirib ki, Ulu Öndərin ikinci dəfə hakimiyyətə gəlişi müstəqilliyini yenicə qazanmış Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi, müharibəyə cəlb olunmuş dövlətimizin gələcək qələbələrini təmin edəcək möhkəm təməli formalaşdırmaq fürsəti qazandı. Ümummilli Liderimizin əsasını qoyduğu siyasi kurs özünü 44 günlük Vətən müharibəsində də göstərdi, Müzəffər Sərkərdə, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, Preziden İlham Əliyevin rəhbərliyi altında qazanılan qələbədə önəmli rol oynadı.



Tədbirdə Milli Məclisin deputatı Kamilə Əliyeva, ehtiyatda olan general-leytenant Ehram Hacıyev, rayon ziyalısı Rəfael Məcidov çıxış edərək, Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı tarixi xidmətlərindən ətraflı bəhs ediblər. Vurğulanıb ki, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin siyasi kursunu uğurla davam etdirir. Son illərdə əldə etdiyimiz möhtəşəm nailiyyətlər əminliklə deməyə əsas verir ki, Ümummilli Liderin müəyyənləşdirdiyi və həyata keçirdiyi müdrik siyasi kurs bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilir. Dövlətimizin başçısının atdığı qətiyyətli və düşünülmüş addımlar Azərbaycan dövlətini qüdrətli və nüfuzlu ölkəyə çevirib.



Qeyd olunub ki, Ümummilli Lider Azərbaycanı parçalanmaq, dağılmaq, siyasi xəritədən silinmək təhlükəsindən xilas edib davamlı inkişaf yoluna çıxarmışdısa, Prezident İlham Əliyev Azərbaycanı qüdrətli bir dövlətə çevirməyi, ölkənin bütün resurslarını ərazi bütövlüyümüzün bərpası üçün səfərbər edərək böyük uğurlar əldə etməyi bacarıb. Azərbaycan ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsində şanlı Qələbə qazanaraq ərazi bütövlüyümüzü bərpa edib. Cəbhədə qazanılan bu qalibiyyət siyasət masasında qazanılan qələbə ilə möhürlənib. Toplantı konsert proqramı ilə başa çatıb.

# Xəyanətkarların QORXU KOMPLEKSİ

***Öz kölgəsinsən qorxan psixi problemli xəstələr kimi ermənilər artıq çox böyük qorxu kompleksi içərisindədirlər və rusların onları tamamilə əzəcəkləri qorxusu yuxularını da ərşə çəkib. Rusiyanın artıq Ermənistanın dövlətçiliyini təhdid etdiyini düşünən və bunu ifadə edən ermənilər az deyil. Ermənistan mətbuatında bir-birinin ardınca belə fikirlər, rəylər yer almaqdadır və görünən odur ki, erməni "başbilənləri" həm qorxurlar, həm də dünyaya səs salıb kömək istəyirlər. Təbii ki, xəyanətkarlıqlarını, namərdliklərini nəzərə aldıqda, qorxu kompleksi keçirmələri başadüşüləndir.***



Azərbaycanın 44 günlük müharibədə mükəmməl qələbəsindən, Ermənistanın rüsvayçı məğlubiyyətindən sonra üçtərəfli razılaşmanın şərtlərinə uyğun olaraq rus sülhməramlılarının Qarabağ ərazisində yerləşdirilməsindən ermənilər bu müddət ərzində sui istifadə etdilər. Erməni silahlı birləşmələrinin qalıqları ölkəmizə məxsus olan əraziləri tərk etməli olduqları halda, məhz sülhməramlılara arxalanaraq mütəmadi təxribatlar hazırladılar. Elə sülhməramlılara arxalanaraq gizli şəkildə silah-sursat, mina daşıyaraq, növbəti təxribatlara hazırlıq da gördülər. Sözsüz ki, sona qədər belə davam edə bilməzdi və indi sülhməramlılar da artıq buna kömək edə, yardımçı ola bilmirlər, çünki bu, onların fəaliyyətləri üçün ziddiyyət təşkil edir. Artıq rus sülhməramlılarından, onların dəstəyindən istifadə edə bilməyən ermənilər onların fəaliyyətini də bəyənməməli olublar və iddia edirlər ki, guya həmin sülhməramlı kontingent erməni əsilliləri qorumaq üçün yox, onları məhv etmək üçün bölgəyə yerləşdirilib. Maraqlıdır, onları məhv etmək üçün yerləşdirilən kontingent niyə kömək edirdi onlara? Digər tərəfdən də, axı Vətən müharibəsi bitdiyi zamandan bu vaxta qədər qoruyucuları sayılan sülhməramlı kontingentə ermənilər necə, hansı üzlə belə qara yaxa bilirlər? Bu bir xəyanətkarlıq nümunəsi deyilmi? Əlbəttə ki, xəyanətkarlıqları fonunda ermənilərin ruslardan "zərbə" gözləmələri anlaşılandır və indi yaşadıqları qorxu da məhz buna görədir. Daha dəqiq desək, xəyanətkarlığın yaratdığı qorxu kompleksi göz önündədir.

Ən maraqlı məqam, ermənilərin guya indi belə bir qərara gəlmələri, bir növ, guya indi "ayılmalarıdır" ki, bu da absurd sayılır, çünki nə sülhməramlı kontingent ermənilərə külli ixtiyar vermək səlahiyyətində olmayıb, nə də ruslar özlərini ermənilər qarşısında borclu hesab etmirdilər ki, səlahiyyət hədlərini də qanunsuz şəkildə aşsınlar və bunu da ermənilər əvvəlcədən bilirdilər. O zaman ermənilər niyə indi qaraqışqırıq, vay-şüvən salıb sülhməramlıları onları qorumamaqda ittiham edirlər və bununla da ürəkləri soyumayaraq, sonlarına çıxmaq üçün onların bölgəyə göndərildiyini iddia edərək bar-bar bağırırlar ki, dünyanın diqqətini cəlb etsinlər. Xüsusən də Qərb tərəfindən Rusiya hədəfə alındığı bir zaman kəsiyində bunu etmək, elə məhz erməni xəyanətkarlığıdır, özü də bu dövrə qədər varlıqlarını, mövcudluqlarını qoruyanlara qarşı xəyanətdir. Bu xəyanətlərini, xəyanətkarlıqlarını özlərindən yaxşı heç kəs bilə, başa düşə bilməz və indi bu səbəbdən keçirdikləri qorxu kompleksinin nədən qaynaqlandığı bəlli olur.

Ukrayna ərazisinin nəhəng bir hissəsini ələ keçirməkdə, hər gün Ukrayna şəhərlərini bombalamaqda, vətəndaşlarını öldürməkdə Rusiyanı, rusları ittiham edən haylar bir növ saman altından su yeritməkdədirlər. Çünki belə bir yanaşmanı Qərbin xoşuna gəlmək üçün tətbiq etməklə, xal qazanmaq arzusunda olduqlarını sübut edir, Rusiyanın yanında olmadıqlarını göstərir və əks qütbə yaltaqlanmağa çalışırlar. Bu, elə bir heyrətamiz ikiüzlülükdür ki, tayı-bərabəri bəşər tarixində görünə bilməzdi. İndi Rusiyanı bütün dünya üçün təhlükəsizlik təhdidi adlandıran ermənilər, təhlükəsizliklərinə görə məhz ruslara borcu olduqlarını etiraf etmədikcə, İrəvan məhz Kremlin qarşısında diz çökmədikcə, qorxu kompleksindən azad ola bilməyəcəklər. Çünki nankorluqlarının, xəyanətkarlıqlarının cavabı olacağı qorxusu ilə yaşamalı olacaqlar.

Erməni xislətinə uyğun olaraq, hamını özlərinə borclu saymaqla haylar hədlərini aşırlar, bəzi etirafları etməkdən boyun qaçırmaqla da həyasızlıq edirlər. Məsələn, Ermənistanın 70 il Sovet ölkəsinin kölgəsində, sonra da həmin ölkənin hüquqi varisi sayılan Rusiyanın qanadları altında mövcudluğunu qoruyub saxlaya bilməsini ermənilərin unutması böyük nankorluqdur. İstər həmin o 70 il ərzində, istərsə də ondan sonra rusların necə güclü olduğunu dərk edən ermənilər, indi Qərbin, ümumilikdə dünyanın təpkisi, sanksiyası altında qalan Rusiyanı, sanksiyadan əziyyət çəkən rusları hədəfə alırlarsa, bunun onlara baha başa gələcəyi qorxusuna düşmələrində qeyri-adi heç nə yoxdur. Çünki Rusiya heç də geridəqalmış bir Afrika ölkəsi deyil və istənilən təhdidlərə də, nankorluqlara da adekvat cavab vermək gücündədir. Məsələ burasındadır ki, bunu ermənilər digərlərindən daha yaxşı bilirlər, çünki Rusiyanın hərbi məsələlərinə burunlarını ən çox elə ermənilər özləri soxublar bu illər ərzində.

Son zamanlar Rusiya telekanallarında, bütün dünyanı "nüvə külünə çevirmək", eləcə də, "Rusiyanın olmadığı bir dünya onlara lazım deyil", həmçinin, "bizdən sonra lap istəyir subasma olsun" təhdidləri edildiyi barədə Ermənistan mətbuatında həyəcan təbilinin çalınması da əbəs yerə, təsadüfi deyil. Ermənilərin dünyanın qaygısına qalması barədə düşünən yəqin ki, tapılmaz. Deməli, haylar mediada belə fikirləri tirajlamaqla qorxularını ortaya qoyurlar, çünki bilirlər ki, Rusiyanın Ermənistana "qulaqburması" verməsi üçün bir neçə saat, uzaq başı, bir gün bəs edər. Qorxu kompleksi də bu baxımdan anlaşılandır. Xüsusilə, Dövlət Dumasının deputatı Yevgeni Fyodorov tərəfindən səsləndirilən fikirlər ermənilərin kürkünə birə salıb desək, yanılmarıq. Yevgeni Fyodorov qeyd edib ki, beynəlxalq hüquq nöqteyi-nəzərindən Ermənistan SSRİ-dən çıxmayıb, ayrılmayıb və deməli, onun hüquqi varisi olan Rusiyadan da çıxmayıb. "Ermənistan suveren olmalıdır, amma beynəlxalq hüquq nöqteyi-nəzərindən ərazilərinin mübahizəli torpaqlar olması faktoru nəzərə alınmaqla", deyən Fyodorov ermənilərə dolayısı ilə çox dərin bir eyham vurub və hədlərini bildirib, hansı ki, indi erməniləri qorxuya salan məsələlərdən biri də bu yanaşmadır. Çünki haylar Fyodorovun səsləndirdiyi təhdidlərin mənasını anlayırlar. Bilirlər ki, ruslar Gümrüdəki Rusiya hərbi bazasından istifadə etməyə hazır olduqlarını bununla nümayiş etdirirlər. Bu fakt özü ermənilərin qorxudan yuxularını qaçırmaları üçün kifayət edir. Həm də hayların torpaqlarının mübahisəli olduğu barədə fikirlər onlar üçün ən ağrılıdır, çünki bölgəyə neçə gəldiklərini özlərindən yaxşı bilən yoxdur. Özləri yaxşı bilirlər ki, Qafqazda məskunlaşmaları üçün özgə torpaqlarına köçürülüblər və həmin ərazilər, həmin torpaqlar onların yurdu, vətəni deyil, Azərbaycana məxsusdur və bu fakt istənilən anda qlobal səviyyədə qaldırılaraq təsdiq olunsa, haylar torpaqdan məhrum olacaqlar. Sözsüz ki, bu köç məsələsində Çar Rusiyasının əvəzsiz rolu, xidmətləri olub və bunu ruslar da, ermənilər də hamıdan yaxşı bilirlər. Ona görə də ermənilər qorxuya düşüblər ki, Rusiyanın arxivində olan həmin sənədlər ortaya çıxsa, ermənilər köçürüldükləri torpaqların da sahibi olmadıqlarını qəbul etməli olacaqlar. Bir sözlə, İrəvan ərazilərini indiyə qədər öz torpaqları kimi dünyaya sırıyan ermənilər üçün Dövlət Dumasının deputatı Yevgeni Fyodorovun sözləri soyuq duş effekti verib və qorxu kompleksi üçün əsas yaradıb.

Özgə torpaqlarında rusların əli və köməyi ilə məskunlaşdırılan, sonra həmin əraziləri özününküləşdirən ermənilər özlərini ölüm və qalım arasında hesab edirlər və Rusiyadan təhlükə gözlədiklərini, bundan da qorxuya düşdüklərini açıq-aşkar etiraf edirlər. Təkcə etiraf etmirlər, utanmadan dünya ictimaiyyətinə də üz tutub kömək diləyirlər, özü də tələb formasında. "Ermənistanı Rusiya təhlükələrindən qorumaq bütün demokratik dünya ictimaiyyətinin şərəf məsələsidir", fikri səsləndirən erməni başbilənləri görəsən niyə bu qənaətdədirlər? Ermənistan, yaxud ermənilər dünya tarixinə, dünya mədəniyyətinə nə veriblər ki, özlərini belə iddialı aparırlar? Axı, xəyanət, satqınlıq, nankorluq, ikiüzlülük, başqalarına məxsus olanın mənimsənilməsi üçün edilən həyasızlıq və buna bənzər digər erməni xislətinin təzahürü mədəniyyət deyil. Uzaq başı Ermənistan dünyaya bir Kim Qardaşyan bəxş edə bilib ki, bunu da mədəniyyət adlandırmaq olmaz, bu, köhnə peşədir və sırf erməni xislətini özündə əks etdirən peşə, hansı ki, qorxmaq, hətta utanıb yerə girmək üçün kifayətdir.

***İnam Hacıyev***

# “Qeyrətli ölüm”



## Evtanaziya cinayətdir, yoxsa qurtuluş?

Evtanaziya - yaşayacağından ümidi kəsilmiş, dəhşətli ağrılarına görə daha çox iztirab çəkmək istəməyən xəstənin öz istəyi ilə həyatına son verməkdəməkdir. Evtanaziya adətən 2 formada həyata keçirilir. Bunlardan biri öldüyü halda tibb avadanlığına bağlanan və həyatı onların vasitəsilə xilas edilməyə çalışılan insanı həmin cihazlardan ayırmaqla baş verir. Digəri isə öz razılığı ilə öldürülməyini tələb edən ölümcül xəstəyə xüsusi dərmanlar, iynə ilə tətbiq edilən üsuldur.

## Evtanaziya harada yarandı?

Qeyd eək ki, evtanaziya 1984-cü ildə ilk dəfə Niderlandda leqallaşdırılsa da dünyadakı ilk belə xidmət göstərən klinika Hollandiyada açılıb. O vaxtkı qanunlara görə evtanaziyaya məruz qoyulanların yaşı 18-i keçməli idi, eyni zamanda həkimi, xəstəxanası, psixiatrı ilə razılaşırıldıqdan sonra mümkün olurdu. Hazırda Avropada Belçika, İspaniya, Hollandiya, Lüksemburq və İsveçrədə evtanaziya haqqında qanun qəbul edilib.

ABŞ-da, Vaşinqtonda sağalmaz xəstəliklərə düçar olanlara həyatlarını "asanlıqla" başa vurmaları üçün həkimlərin öldürücü dərmanlar verməsinə icazə verən qanun 1999-cu ildə qüvvəyə mindi. 1998-ci ilin noyabrından bu ölkədə "qeyrətli ölüm" adlandırılan qanun layihəsi müzakirə edilirdi. Qanuna əsasən öldürücü dərmanları yalnız o pasientlərə vermək olar ki, onun ehtimallara görə həyatının sonuna yarım il qalıb və həmin şəxs 18 yaşına çatıb. Bütün qərarlar qəbul edildikdən sonra həkim hər hansı bir dərmanın öldürücü dozasını pasient üçün müəyyən edir və dərmanın alınması və qəbulu isə pasientin öz üzərinə düşür.

## Azərbaycanda evtanaziya olmur: ”bu insanlığa yaraşmaz”

Son illər Azərbaycanda da ölümün tezləşdirilməsi (evtanaziya) haqqında pasiyentin özünün, onun qohumlarının və ya maraqlarının təmsil edən şəxslərin xahişini yetirməyin qadağan olunacağı barədə müzakirələr aparıldı. Qeyd edək ki, bu ”Pasiyentin hüquqları haqqında” qanun layihəsində öz əksini tapıb. Layihəyə əsasən, beyni ölümü faktının konstatasiyasıi zamanı pasiyentin həyatının saxlanılması vasitələrinin kəsilməsi haqqında qərar yazılı surətdə həkim məsləhət komissiyası tərəfindən qəbul edilir.

Qanunla qadağan olduğu üçün ölkəmizdə xəstələrin evtanaziyası mümkün deyil. 1997-ci ildə qəbul edilmiş ”Əhalinin Sağlamlığın Qorunması Haqqında Azərbaycan Respublikasının Qanunu”n 38-ci maddəsində yazılır: ”Evtanaziya, yəni xəstənin xahişi ilə onun ölümünü tezləşdirmək, həyatını davam etdirməyə kömək edən süni tədbirlərin dayandırılması qanunla qadağandır. Xəstəni bilərəkdən evtanaziya edən və yaxud etdirən şəxs qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır”.

## Etik sayan da var, qadağan edən də

Hazırda Avropanın bir neçə ölkəsində bununla bağlı müsbət qərarlar qəbul olunsa da Azərbaycanda bu məsələ ilə əlaqədar ciddi qadağa var, qanunlarımız evtanaziyanı qətiyyətlə qadağan edir. Evtanaziyanın yalnız və yalnız peşəkarlığı yüksək səviyyədə olan, tam islahatlar keçirilmiş səhiyyədə tətbiq edilməsi daha məqsədəuyğundur, səhiyyə islahatları başa çatmamış, mülkiyyət formaları tam formalaşmamış, icbari sığorta sistemi axsayan və yaxud olmayan ölkələrdə isə evtanaziyanın tətbiqi əlavə problemlər yarada bilər.

Ekspertlər hesab edir ki bu məsələ ictimaiyyətin müzakirəsinə - referenduma çıxarılmalıdır. Bu qərarın bir nazirliyin və ya idarənin qərarı olmaması daha doğru addım olar, bu işin məsuliyyəti altına hamının girməsi daha məqsədəuyğundur.

Hazırda evtanaziya Hollandıya, İsveçrə, Danimarka və Belçika kimi dövlətlərin hüquq sistemlərində bəzi şərtlər altında qanuni akt kimi qəbul edilir. Bununla yanaşı Danimarka qanunlarına görə 16 yaşlı gənc yardımlı intihar edə bilər. 12-16 yaş arasında yeniyetmələr isə valideynlərinin razılığı əsasında evtanaziyadan istifadə edə bilər.

Almaniyada 1 sentyabr 1939-cu ildə sağalmaz xəstələr, əqli zəiflərə və fiziki cəhətdən düzgün formalaşmayan uşaqlar üçün ”mərhəmətli ölüm” adlı qərar qəbul edilib. Hələ 1939-cu ilin əvvəlində evtanaziya əməliyyatı çərçivəsində əqli problemi olan 70 min alman öldürülüb. Almaniyada evtanaziya müəyyən şərtlər çərçivəsində bu gün də qəbul edilməkdədir. ABŞ-da hələ 20-ci əsrin əvvəllərində müzakirəyə çıxarılan bu məsələ ilə bağlı 1906-cı ildə Ohayo ştatının Parlamentinin qəbul etdiyi qərara görə sağalmaz xəstəliklərdən əziyyət çəkən insanlar xüsusi təşkil edilmiş və minimum 4 nəfərdən ibarət komissiyalara müraciət edə bilər və komissiyanın qərarı ilə əzablı həyatlarına son qoya bilərlər. Lakin qanun ali məhkəmə tərəfindən rədd edildi.

Yenidən 2008-ci ilin noyabr referendumunda təsdiqlənmiş və Vaşinqton hökumətinin 6 mart 2009-cu il qanununa əsasən son mərhələdə intihara yardıma icazə verir. Həmçinin qanun daxilində xəstələrə altı ay içərisində tibbi yardımla ölüm üçün həkimə müraciətə icazə verilir. Oreqon və Montana kimi ştatlarda da eyni prosedurdur. Lüksemburqdakı mövcud qanun 2009-cu ilin 17 martından evtanaziya və intihara yardımı qanuni edib. Kanadada könüllü evtanaziya 2015-ci ildən etibarən həyata keçirilir. İnsanlar xəstəliyin sonuncu mərhələsində ölüm üçün tibbi yardıma müraciət edə bilər.

Rusiya Federal qanunlarına görə 45-ci maddə evtanaziyanı qadağan edir.Qanun maddəsində pasiyentin öz arzusu ilə evtanaziya edilməsinə görə cəza tətbiqi nəzərdə tutulur.Bununla belə bu məsələ yenidən müzakirələr üçün açılıb. Çünki Rusiyada son illər ağır xəstəliklərə tutulmuş insanların intihar edərək həyatlarına son verməsi halları çoxalıb. Türkiyədə isə evtanaziya qadağan edilməklə yanaşı bunu həyata keçirən şəxs ömürlük həbslə cəzalandırılır. Avropa İnsan Hüquqları Məhkəməsinin də evtanaziyaya qarşı münasibəti xoş deyil.

## ”Ölüm haqdır, yaradandan başqa heç kimin buna ixtiyarı yoxdur”

İlahiyyatçı Seymur Hacıyev deyir ki, müsəlman aləmində belə bir qərar doğru addım deyil: ”Bu yaradanın işinə qarışmaqdır, başqa cür açıqlaması yoxdur. İlahi qüvvənin hər bir qulun üzərində haqqı var. Ölüm bir mələkdir, hər kəs ömür payını Allah-təalanın verdiyi qədər yaşayır. Kim nə vaxt doğulacaq, nə vaxt öləcək - ondan başqa heç kim bilmir. Hər kəs bir vasitə ilə haqq dünyasına qovuşur, kimi qəza ilə, kimi əcəl ilə - hamısına Allah qərar verir. Ölüm bir olan Allahdan sonra ən uca olan ilahi vəsilədir. Ölümü də hər kəs dəyərləndirə bilmir”.

Müsahibimiz deyir ki, İslam özünəqəsdi qətiyyətlə rədd edir: ”Peyğəmbərimiz deyib ki, bir insanı öldürmüş kəs bütün insanlığı öldürmüş kimidir. Xəstənin iki ay, 2 il vaxtının qalmasını yalnız yaradan müəyyənləşdirə bilər, o xəstənin həyatının sonu təkcə ona məlumdur. İslam qanunlarında evtanaziya haram sayılır və hem bir müsəlman ölkəsində bu cür qərar yoxdur”.

## Erməni həkim sağalacaq insanlara evtanaziya tətbiq edirmiş

Erməni riyakarlığının bir forması da evtanaziya tətbiqində qeydə alınıb. Belə ki, bu gün də evtanaziya tətbiqini məqbul sayan qanunun qüvvədə olduğu Kaliforniyada 1958-ci ildən qəzetlərdə evtanaziyanın təbliği aparılırdı. Məqalələrin çoxunun müəllifi də Qevorkyan soyadlı erməni olub. O tez tez mətbuatda ”asan ölüm” elanları verirdi, müraciət edənlər də onun zəhərli iynələri ilə ölürdü.

Sonradan məlum oldu ki, onun evtanaziya ilə öldürdüyü 10 nəfərin əksəriyyəti ölümcül xəstəliyi olanlar olmayıb. Yəni erməni həkim sağala biləcək xəstələri də öz razılığı ilə öldürüb, amma onlara sağala biləcəklərini deməyib. Onun məqalələri qətiyyətlə pislənirdi. Qevorkyanın gizlicə evtanaziya xidməti göstərdiyi aşkarlanandan sonra isə o həkimlikdən uzaqlaşdırıldı və 25 il müddətinə həbsə məhkum edildi.

***Lalə Mehralı***



**MƏTANƏT**

# İnsanlaşan robot, robotlaşan insan

**“Agility Robotics” tərəfindən hazırlanan və insan kimi davranan ilk robot olma xüsusiyyətinə sahib olan Digitin bacarıqlarını nümayiş etdirdiyi bir tədbirdə yerə yıxılması ilə özlüyümdə bir neçə suala cavab axtarmağa çalışdım. Bu mənzərənin təsiri altında öz-özümlə söhbətimdə dünyanın nə üçün insanları robotlaşdırmaq, robotları isə insanlaşdırmaq kimi istəkdə olduğunun çözümünü axtardım və bu barədə bir xeyli düşündüm.**

Həqiqətən maraqlıdır, deyilmi? Öncə insanlar robotlaşdırıldı. Məsələn, yeni texnologiyalar həyatımıza yeniliklər gətirdi. Müasir kənd təsərrüfatı avadanlıqları, paltaryuyan, qabyuyan, tozsoran, ətçəkən, qəhvədəmləyən və sair saymaqla bitməyən məişət əşyaları ilə robotlaşdıq. Biz sadəcə ayaq üstündəcə nələrisə idarə etdik, vəssalam.

Kompüterlərsə beynimizi robotlaşdırmağa başladı. Daha sonra həyatımıza daxil edilən internet bizi, sözün həqiqi mənasında, əsl robota çevirdi. Ta əziyyət çəkib hər hansı kitabxanaya üz tutmaq lazım gəlmədi. Hər şey əlimizin altında internetdə oldu. Bir axtarışla bilmək, məlumat almaq istədiklərimizin hər biri anında qarşımıza gəldi.

Beləliklə, nə toxum səpdik, nə ot biçdik, nə paltar yuduq, nə qab. Nə enerji sərf edib ət çəkdik, nə meyvə şirəsi çəkdik, nə ev süpürdük və sair. Nə qohuma-qonşuya getdik, nə rayonlarda qoyub gəldiyimiz ata-anamızı ziyarətə. Hamısını görüntülü zənglər həll etdi. Bunlarla hərəkətimizə son qoyduq. Gündən-günə passivləşməyə, kilo almağa, sağlamlığımızı yeni texnologiyalara qurban verməyə başladıq.

Daha sonra isə beyin ölümü keçirmək üçün bir yolçuluğa çıxdıq. Kompüter, internet aləmi beyinlərimizi iflic etməyə başladı. Bununla kitabdan, kitabxanalardan, oxumaqdan, yazı yazmaqdan, muzeylərdən, kinodan, teatrdan vaz keçdik. Çünki bir komanda ilə bütün bunları qarşımıza gətirib, oturduğumuz yerdəcə istədiyimizi oxumağa, görməyə, tanış olmağa, öyrənməyə, məlumat almağa nail olduq. Əvvəllər bütün bunlar o qədər xoşumuza gəldi ki, həddən artıq təqdir də etdik. Lakin bir vaxt gözümüzü açıb həyata baxanda gördük ki, itirdiyimiz qazandığımızdan dəfələrlə çoxdur. Bu itkilər isə təəssüf ki, bir daha geri dönüşü olmayan itkilərdir...

İndi isə, maraqlıdır, robotlar insanlaşdırılır. Elə hey oxuyuruq, məlumat alırıq ki, artıq dünyanın başbilənləri insanları robotlarla əvəzləşdirmək fikrindədir. Görünür, insanın artıq daha çox fayda verə bilməməsi düşünülür. Elə Digiti dizayn edən şirkət də bu fikirdə omayıbmı? Bəs Digit nə etdi? 20 saatlıq performansla 99 faiz müvəffəqiyyət qazansa da, bəzi anlarda tarazlığını itirdi və sonda yerə yıxıldı.

Ey, fani dünya... Ədalətsiz dünya. İnsana, insanlığa qarşı, həqiqətən, ədalətsiz dünya... İnsan əsrlərlə əmək istismarına məruz qalanda, iş vaxtı, saatı məlum olmayanda heç vaxt yıxılmadı, dimdik dayandı. Ağrıdı, acıdı, bəzi istismarlara məruz qaldı, lakin yıxılmadı, ayaq üstündə durmağa, sahibinin üzünü qara etməməyə çalışdı. Lakin budur, insanlaşdırılan robot insan qədər olmadı, tab gətirmədi, yıxıldı, sahib olduğu şirkət üçün heç də uğur amili olmadı. Hansı ki, o, insandan üstün tutulmuş, haqqında düşünülmüşdü ki, insandan çox fayda verə bilər...

Maraqlıdır, deyilmi? İnsanlar robotlaşdırılır, robotlar insanlaşdırılır. Hərəkət məhdudlaşdırılır, ətalət hərəkətə gətirilir... Lakin son olaraq düşünürəm ki, hələ də ortada yeni bir kəşf yoxdur. Hələlik hər iki prosesin tərkibində insan amili var. Ulu Yaradanın yaratdığı, nəfəs verdiyi insan. Elə başbilənlər də hələ ki, insan üzərində öz təcrübələrini həyata keçirirlər. İnsanı robotlaşdırmaqla və ya robotu insanlaşdırmaqla. Bu prosesin sonunda insandan fərqli, faydalı bir əşyanınmı, canlınınmı ortaya çıxacağı isə hələ sual altındadır...

# Abidələr ölkəsindən danışaq...

**Azərbaycan abidələr ölkəsidir. Abidələrsə öncə tarix, sonra mədəniyyət və incəsənətdir. Belə isə çoxsaylı abidələrimiz ölkəmizin qədimliyindən, bu qədimliklə qoşa addımlayan mədəniyyət və incəsənətimizdən xəbər verir. Hər biri bir tarixdən danışan, bir dövrdən söhbət açan abidələrimizlə Azərbaycanımız necə də bəxtiyardır, qürurludur...**

## Abidələr şəhəri

Abidələr bu şəhərin hüsnünü bəzəyir, dünənindən xəbər verir, qədim tarixini təsdiqləyir. Bakı köksünə sığınan abidələrindən danışır, YUNESKO-nun Ümumdünya irsi siyahısına salınmış yaşayış məhəlləsi və tarixi-memarlıq qoruğundan- İçərişəhərdən, burada-açıq havada yerləşən müxtəlif dövrləri əhatə edən 50-dən çox tarixi və memarlıq abidələrinin yaratdığı nadir muzeydən, qoruna-qoruna günümüzədək gəlib çatmış Şirvanşahlar sarayından, Qız qalasından, Sınıq Qala minarətindən danışır. Qız qalasında faciəvi bir rəvayətə şahidliyini ürək ağrısı ilə vurğulayır. Xəzərin bu faciəyə göz yaşlarından yarandığından, o qızın fəth eidlməz, sarsılmaz obrazından söhbət açır. Xarici turistlərin Bakıya gələrkən mütləq bu qədim abidənin tarixi ilə maraqlandıqlarını, buradan onun sevimli Xəzərini seyr etdiklərini deyir.

Tikintisi bütün XV əsr ərzində davam etdirilmiş, Azərbaycan memarlığının ən böyük abidəsi, bir çox tikililərdən ibarət bütöv bir memarlıq ansamblı olan, kompozisiya və planlaşdırılmasına görə dünyada analoqsuz Şirvanşahlar Sarayından qürurla danışır bu şəhər... Suraxanı qəsəbəsində yerləşən XVII əsrin atəşpərəstlər məbədi - Atəşgahdan, onun qaya üzərində qürurla dayanmasından, burada yerin altından çıxan qaz sayəsində min illərlə od yanmasından, bu odun istisinə yığışanlardan söhbət açır.

Köksünə yaxın bir yerə sığınan, 2007-ci ildə Qobustanın qayaüstü rəsmlərinin mədəni landşaftı YUNESKO-nun Dünya Mədəni irsi abidələri siyahısına salınan, ən qədim tarixi abidədən-özünün qayaüstü təsvirləri ilə dünyada məşhur olan Qobustandan da qürurla bəhs edir. Dövlət tarixi-etnoqrafik və bədii qoruğu olan Qobustanda Daş dövrünün və Azərbaycan xalqının tarixi keçmişinin şahidi olan Böyükdaş, Kiçikdaş, Cingirdağ, Sonqardağ və Sıxqayada çoxlu miqdarda qayaüstü təsvirlərin, düşərgələrin, insan məskənlərinin, baş daşlarının olduğunu vurğulayır. Böyükdaş ərazisində mezolitdən tutmuş orta əsrlərə kimi bütün dövrlərin abidələrinə rast gəlindiyindən danışır.

Abşeronun "İçərişəhər"i adlandırılan Qaladan-buradakı qədim məscidlər, yollar, ovdanlardan, XV əsrə aid qədim qəbirstanlıqdan, hamamlar, bürünc dövrünə məxsus məskun yerlərin qorunub saxlanmasından bəhs edir. Bu şəhər qədim tarixi abidələri ilə qürur duyur, onlardan fəxrlə söhbət açır...

## Hər bölgəmiz bir tarix, bir abidə...

Tək Bakı deyil, bölgələrimizin hər birində qədimliklə müasirliyin çiyin-çiyinə mənzərəsi fonunda abidələrimizi görmək mümkündür. Onlardan biri-Naxçıvanda Əlincə Qalası tarixi memarlıq abidəsi Naxçıvan-Marağa memarlıq məktəbinin ən gözəl nümunələrindən biridir. Əlincə yüzillərlə Azərbaycanın və Yaxın Şərqin müxtəlif hakim sülalələrinə qulluq göstərsə də, tarixdə daha çox Azərbaycan Atabəylərinin iqamət və xəzinə yeri kimi tanınmış, çağının ən güclü hərbi qüvvələrini məğlubiyyətə uğradan böyük cahangir Əmir Teymuru belə möhkəmliyi ilə heyrətləndirmişdir. Səfəvilərdən sonra ciddi dağıntılara uğrasa da, qala XIX əsrdə də öz funksiyasını yerinə yetirmişdir.

Səsi əsrlərdən gələn Möminə xatun məqbərəsinin möhtəşəm görüntüsünə tamaşa etdikcə sanki müasir aləmdən qədim dünyaya səyahətə çıxırsan. Məşhur Azərbaycan memarı Əcəmi Naxçıvaninin şah əsəri və Naxçıvan-Marağa memarlıq məktəbinin ən dəyərli abidələrindən biri olan Möminə xatun türbəsi Naxçıvan şəhərinin tarixi mərkəzində -Atabəylər Memarlıq Kompleksinin tərkibində yerləşir. Möminə xatun türbəsi həmin kompleksdən dövrümüzə çatmış yeganə abidədir.

Türbənin uca gövdəsini yuxarıda qapayan yazıda - abidənin baş kitabəsində yazılmışdır: "...bu türbəni dünyanın elmli, adil məliki, böyük qalib Şəmsəddin Nüsrət əl islam və əl müslimin Cahan Pəhləvan atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəgiz ...dünyanın və dinin cəlalı, islamın və müsəlmanların namusu Möminə xatunun xatirəsinə tikməyi əmr etdi!..."







Kiçik Qafqazın Ordubad dağlarında, Qapıcıq dağının cənub və şərq yamaclarındakı Nəbi yurdunda, Qaranquş yaylaqlarında yerləşən abidədə Gəmiqaya rəsmləri - qayaüstü təsvirlər əks olunub. Arxeoloqlar Qaranquş yaylağında qayaüstü rəsmlərin həkk olunduğu ərazidə Azərbaycan türklərinin ulu babalarına aid yurd yerlərinin qalıqlarını aşkara çıxarmış, müəyyənləşdirmişlər ki, Alp çəmənlikləri ilə zəngin olan Gəmiqaya-Qaranquş yaylağı Naxçıvanın qədim sakinlərinin əsas ov məskənlərindən biri olmuşdur.

Xüdafərin körpüləri- tarixən Azərbaycanın quzeyi ilə güneyini birləşdirən, bir qərinəyə qədər erməni işğalı altında qalan, 2020-ci ildə şanlı ordumuzun 44 günlük Vətən müharibəsində azad etdiyi bu tarixi abidə Cəbrayıl rayonu ərazisində yerləşir. Xudafərin Azərbaycan memarlıq sənəti tarixinin bəzəyi sayılan möhtəşəm tarixi abidələrdəndir. Araz çayı üzərində salınan iki Xudafərin körpüsü məlumdur. Onlardan birincisi "Baş Xudafərin körpüsü" adlanır, uzunluğu 130, eni 6, hündürlüyü isə 12 metrdir. İkinci körpü isə 15 aşırımlı olmaqla uzunluğu 200, eni 4,5 metr, hündürlüyü 10 metrdir. Baş Xudafərin körpüsünün daha qədim olması ehtimal edilir. Belə ki, bu körpünün Əhəməni imperiyası zamanında ağacdan tikilməsi və Eldəgizlər dövləti zamanında isə daş və kərpiclə üzləndiyi güman edilir. H. Qəzvini yazır ki, Xudafərin körpüsü Məhəmməd peyğəmbərin yaxın adamı olan Bəkir ibn Abdulla tərəfindən miladi tarixlə 736-cı ildə inşa etdirilib. Xudafərin körpüsünün Makedoniyalı İsgəndər, ya da Roma sərkərdəsi Pompey tərəfindən tikilməsi barədə də fərziyyələr irəli sürənlər var.

Bu körpünün Hindistandan başlayaraq Yaxın və Orta Şərq ölkələri, Rusiya və Qərbi Avropa ölkələri arasında Azərbaycanın iqtisadi və mədəni əlaqələrinin inkişafında böyük əhəmiyyəti olub. Güney Azərbaycanımızın Bəzz və Ərk qalaları. Bəzz Qaradağ mahalının Kələybər qəsəbəsində 3 km cənub-qərbdə yerləşir. Xürrəmilər hərəkatının rəhbəri Babəkin əsas sığınacaqlarından biri olduğu üçün xalq arasında daha çox Babək qalası kimi tanınır. Ərk qalası isə Təbriz şəhərində yerləşir. XIII əsrdə Hülakülər (Elxanilər) zamanında vəzir Əlişah tərəfindən tikdirilib.

XI - XII əsrlərdə Şamaxı şəhərini müdafiə etmək üçün inşa edilmiş Şamaxı qalası, Gülüstan qalası, Gədəbəy rayonunun Qala kəndi ərazisində yerləşən Koroğlu qalası, Şuşanın təxminən 24, Xocalının 5 kilometrliyində və Ağdam şəhərinin 12 km cənubunda Qarqarçayın sağ və sol sahillərində dağ döşündə yerləşən Əsgəran qalası, İsmayıllı rayonu ərazisində yerləşən Cavanşir qalası, Goranboy rayonundakı Gülüstan qalası, IV-VI əsrlərdə Şabran rayonunun təqribən 20-25 kilometrliyində, Çanaqqaya adlanan sıldırım qayanın zirvəsində istehkam qarovulxana məqsədi ilə Sasani hökmdarları tərəfindən tikilmiş Çıraqqala, Şamaxı rayonunun Mərəzə kəndində, dağın döşündə tikilmiş ikimərtəbəli Diribaba türbəsi, Ağdərə rayonunun Vəngli kəndində, Xaçınçayının sol sahilində yerləşən XIII əsr xristian alban monastırı Gəncəsər məbədi, Şəki rayonunun Kiş kəndi ərazisində yerləşən eyniadlı alban məbədi, Şuşa mərkəzi meydanının memarlıq ansamblında hakim mövqedə duran, XIX yüzilliyə aid binalar-Yuxarı Gövhərağa və Aşağı Gövhərağa məscidləri, Azərbaycan memarlığının şah əsərlərindən olan Şəmkir minarəsi ayrı-ayrı əsrlərdən, tarixi hadisələrdən söhbət açır.

Azərbaycanın cənub-qərbindəki Kiçik Qafqaz sıra dağlarinin cənub-şərq yamacında Quruçay çayının sol sahilində, Xocavənd rayonu ərazisində yerləşən Azıx-dünyanın ən qədim insanlarının yaşadığı mağaranın yerləşdiyi Azərbaycan torpağı 1993-cü ildən erməni işğalına məruz qalmış, vandal ermənilər mağaradan silah-sursat anbarı kimi istifadə etmişlər.

Azıx mağarası haqqında dünya çox az məlumata malikdir. Çünki keçmiş SSRİ dövründə bu mağarada axtarış aparan, onun tarixi barəsində danışan alimlərin xarici ölkələrdə yaşayan həmkarları ilə əlaqə yaratmasına imkan verilməmişdir. Bunun nəticəsidir ki, dünyanın ən qədim insanlarından birinin Azərbaycan ərazisində yaşadığı haqqında dünya hələ də çox az şey bilir. 1960-cı ildə Azərbaycan arxeoloqu Məmmədəli Hüseynovun rəhbərlik etdiyi ekspedisiya Azıx mağarasını kəşf etdi və üzərindəki pərdəni götürməyə başladı. Aydın oldu ki, mağara dünyanın ən qədim sakinlərinin (onları Azıxantrop adlandırırlar) yaşayış məskəni olub. 1968-ci ildə M.Hüseynovun uzun zamandan bəri Azıx mağarasında apardığı qazıntıların nəticəsi olaraq Neandertal tipə məxsus olan bir insanın alt çənə sümüyü aşkar edildi. Tapıntı üzərində aparılan tədqiqatlardan sonra məlum oldu ki, onun ən azı 350-400 min illik bir tarixi vardır.

## Abidələr ölkəsinin haray çəkən abidələri

18 Aprel- dünyada tarixi abidələrin mühafizəsi günü kimi qeyd olunur. Həmin gün YUNESKO-nun abidələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş qərarı əsasında qeyd olunur. Məqsəd dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir.

Maraqlıdır, 30 il işğal altında qalan torpaqlarımızda 500-dək tarixi-memarlıq, 100-dən çox arxeoloji abidələr, on minlərlə eksponat olan 22 muzey, 4 rəsm qalereyası, 46 milyon kitab və əlyazmalar saxlanılan 927 kitabxana, 808 klub, 10 istirahət və mədəniyyət parkı, 85 musiqi və incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı-xalqımızın keçmişi və bu gününü əks etdirən 1852 mədəniyyət və incəsənət abidəsi erməni vandalizminin təcavüzünə məruz qaldı. Bu abidələr düz 30 il haray çəkdi. Uçurulan, sökülən, daşınan, məhv edilən, yer üzündən silinən abidələrimiz haray çəkdi. Bütün dünyaya üz tutdu, yer səyindən ermənilərin tarixi silmək istədiklərini hayqırdı. Bu səsə səs verən oldumu? Abidələrin mühafizəsi üçün cavabdehlər tarixin yaddaşı olan bu abidələrin halına acıdılarmı?

Məhv edilən tarixi-memarlıq, arxeoloji abidələr, məscidlər dünya ictimaiyyətinin diqqətini özünə cəlb edə bildimi? Bəli, edə bildi. Onlar möhtəşəmliyi ilə dünyanın diqqətini cəlb etdi, məhv edilməsi xəbəri qulaqlarda səsləndi. Lakin onların halına yanan tapılmadı. Bütün dünya gördükləri qarşısında kor, eşitdikləri qarşısında kar oldu. Erməni vandalizmi isə vandallığını gündən-günə genişləndirdi. Abidələrimizin düşmənə çevrildi. Onlar tək bizim torpaqlarımızı deyil, abidələrimizi də işğal etdilər. 30 il tək torpaqlarımızı əsarət altında saxlamadılar, eyni zamanda abidələrimizin qətlini həyata keçirdilər. Torpaqlarımızda qurulan-yaradılan nə vardısa, hamısını məhv etdilər. Məscidlərimizi təhqir etdilər. Dünya isə sanki bunlardan xəbərsiz kimi susdu. Tarixi abidələr-məqbərələr, saraylar, məbədlər, məscidlər, qəbiristanlıqlar, körpülər, ovdanlar, günbəzlər, minarələr tarixi keçmişimizin yadigarlarıdır. Onlar zamanın sərt sınaqlarına sinə gərərək bu günümüzə gəlib çatmışlar. Biz torpaqlarımızın qədir-qiymətini bildiyimiz kimi, abidələrimizi də mühafizə edənlərik. Odur ki, hər zaman abidələrimizin yaşadılması, qorunub saxlanması üçün çalışmışıq.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Ali Baş Komandanımızın yüksək sərkərdəliyi və milli ordumuzun səyi ilə torpaqlarımızı düşməndən geri aldıq. Biz Zəfər qazandıq. Eşitmişdik, həm də gördük ki, ermənilər abidələrimizi necə məhv ediblər. Lakin əsas torpaqdır, torpaq varsa, onun üzərindəki hər şey bərpa oluna bilər. Deməli, yaxın gələcəkdə xəritələr üzrə bütün abidələrimiz də bərpa olunacaqdır. Onların ermənilər dağıtdığı hissələri də saxlanmaqla gələcək nəsillərə bu abidələrin varlığı və erməni vəhşiliyi göstəriləcəkdir. Abidələr tarixdir. Səyahətinə çıxdığımız tarix isə bizə abidələrimizlə bağlı böyük bir keçmişimizin olduğundan söhbət açdı. Hər zaman qürur duyduğumuz keçmişimiz...

***Mətanət Məmmədova***

*"Beton məmulatları" Açıq Səhmdar Cəmiyyəti*

## *Mühasibat balansı*

*31 Dekabr 2022-ci il tarixinə*

(Azərbaycan manatı ilə)

| Maddənin №-si | | Qeydlər | 2022 | 2021 |
|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri-maddi aktivlər | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 6 | 187933.40 | 202990.62 |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | | |
| 13 | Bioloji aktivlər | | | |
| 14 | Təbii sərvətlər | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | |
| 17 | Uzunmüddətli debitor borcları | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | | | |
| | **Cəmi uzunmüddətli aktivlər** | | **187933.40** | **202990.62** |
| 2 | Qısamüddətli aktivlər | | | |
| 20 | Ehtiyatlar | | | |
| 21 | Qısamüddətli debitor borcları | 7 | 492881.23 | 575482.36 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 22430.31 | 19615.54 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | | |
| 24 | Sair qısamüddətli aktivlər | 9 | 83226.08 | 83226.08 |
| | **Cəmi qısamüddətli aktivlər** | | **598537.62** | **678323.98** |
| | **CƏMİ AKTİVLƏR** | | **786471.02** | **881314.60** |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| 3 | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | 13 | 463984.00 | 463984.00 |
| 31 | Emissiya gəliri | | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | | |
| 33 | Kapital ehtiyatları | | 24914.00 | 24914.00 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 207765.49 | 104917.07 |
| | **Cəmi kapital** | | **696663.49** | **593815.07** |
| 4 | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | | |
| 5 | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 10 | 15969.46 | 18555.19 |
| 53 | Qısamüddətli kreditor borcları | 11 | 7380.60 | 8481.81 |
| 54 | Sair qısamüddətli öhdəliklər | 12 | 66457.47 | 260462.53 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | **89807.53** | **287499.53** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **89807.53** | **287499.53** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **786471.02** | **881314.60** |

RƏHBƏR
BAŞ MUHASİB

**SƏRBƏST AUDİTOR** **İNDEPENDENT AUDİTOR**

Azərbaycan Respublikası, AZ 1063
Bakı şəhəri, Nizami küçəsi, 25/18
VÖEN : 1100075712
Audit İcazəsi SA № 258

25/18, Nizami Street
AZ 1063, Baku, Azerbaijan
Tax ID : 1100075712
Audit License İA №: 258

Phone : (+99450) 313 89 72
Phone : (+99455) 313 89 72
Phone : (+99412) 511 32 31
E-mail: ilham.auditor @ mail.ru

## MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Beton Məmulatları" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyinə**

**Rəy**

1. Mən, "Beton Məmulatları" ASC-nin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

2. Mən auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Fəaliyyətin fasiləsizliyinə dair əhəmiyyətli qeyri-müəyyənlik**

Mən diqqəti "Beton Məmulatları" ASC-nin maliyyə hesabatlarına dair izahedici qeydlərində olan koronavirus infeksiyasının yayılması şəraitində və bunun iqtisadi nəticələri ilə bağlı Cəmiyyətin fəaliyyətinin davam etdirilməsinə dair qeyri-müəyyənlik faktorlarına yönəltmək istərdim. İzahedici qeydlərdə hazırki şəraitdə "Beton Məmulatları" ASC-nin öz fəaliyyətinin fasiləsizliyini təmin etmək sahəsində əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması göstərilmişdir. Bu şəraitlə əlaqədar mən öz mülahizələrimə dəyişikliklər etməmişəm.

**Əsas audit məsələləri**

3. Əsas audit məsələləri mənim peşəkar mühakiməmə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və mən bu məsələlərə dair ayrılıqda rəy vermirəm.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

4. Rəhbərlik maliyyə hesabatlarının IFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyəti fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

5. Mənim məqsədim təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**Sərbəst auditor**
**Hacı-Əzizov İlham İsfəndiyar oğlu**

Bakı şəhəri, Azərbaycan Respublikası
11 aprel 2023-cü il

Sərbəst auditor
Independent Auditor

# WELT nəşri Ərdoğan-Kılıçdaroğu rəqabətindən yazdı

**Almaniya nəşri müxalifət ittifaqında vahid namizəd qismində çıxış edən Kamal Kılıçdaroğlunun uğur qazana biləcəyi ilə bağlı pessimist qeydlərini aparıb**

Almaniyanın WELT nəşri Rəcəb Tayyib Ərdoğanın qarşıdan gələn prezident seçkilərindəki mümkün qələbəsi ilə bağlı məqalə ilə çıxış edib. Adıçəkilən nəşr qeyd edib ki, Ərdoğan seçkiləri yalnız ölkə vətəndaşlarının bütünlüklə ona səs verməyəcəyi halda uduza bilər. Bu faktın isə qeyri-mümkün olduğunu qeyd edən WELT bildirir ki, Türkiyə prezidenti Ərdoğanın uğur açarı qərbin liberal baxışlarından uzaqda dayanır. Lakin bununla yanaşı, ona olan dəstək kifayət qədərdir.

### ”Universitetlərdə baş örtüklərinə qadağalar tətbiq olunurdu”

SİTAT: ”Ərdoğana ən çox dəstək iqtisadi böhrana və zəlzələyə rəğmən, Anadolu əyalətlərindən gəlir. Orada seçiciləri meqapolislərdəki əhalidən fərqli olaraq tamamilə başqa şeylər narahat edir. Ərdoğanın hakimiyyətə gəlməsinə qədər türk siyasətində mühafizəkarların, dindarların, Anadoludan olan insanların sayı nadir idi. Şəhərlərdə respublikanın elitası, əsasən, liberal həyat sürürdülər və belə bir yaşam tərzi ölkə həyatında dominantlıq edirdi. Universitetlərdə baş örtüklərinə qadağalar tətbiq olunurdu”.

WELT qeyd edir ki, məhz bu kimi hallardan sonra Anadoluda yaşayan konservativ və dindar kəsim Ərdoğanın əhəmiyyətini hiss etməyə başladılar.

### ”Ərdoğanı anlamaq istəyənlər Anadoluya getsinlər”

”Son araşdırmalar və müşahidələr onu göstərir ki, hazırda seçki rəqabəti eyni müstəvidə gedir”, deyə yazan Almaniya nəşri müxalifət ittifaqında vahid namizəd qismində çıxış edən Kamal Kılıçdaroğlunun uğur qazana biləcəyi ilə bağlı pessimist qeydlərini aparıb. SİTAT: ”Kılıçdaroğlunun müxalifət alyansının başında yer almasına baxmayaraq, hazırda onun qələbəsinə zəmanət yoxdur. Kimlər ki, Ərdoğanı anlamaq istəyirsə, gərək ölkənin dərinliklərinə getsinlər - Anadoluya”, deyə WELT bildirir.




**Rövşən RƏSULOV**

# Hərb tariximizdə imzası olan böyük Sərkərdə

**Hər bir dövlətin tarxində ordu faktoru həmin dövlətin daxili və xarici siyasətinin güzgüsü hesab olunmuşdur-cəmiyyətin və onun yaratdığı dövlətin orduya olan münasibəti onların öz nüfuzuna, bu gününə və sabahına olan münasibətidir. İstənilən dövlətin müstəqilliyinin, suverenliyinin əsas atributlarından biri onun Silahlı Qüvvələridir-hər bir ölkənin qüdrəti, beynəlxalq siyasi nüfuzu onun ordusunun döyüş qabiliyyətindən asılıdır. Bu mənada Ulu öndərin "Vətəndaş - Milli Ordu - müstəqillik" triadası mühüm əxlaqi mahiyyət daşıyır-güclü Milli Ordunun yaradılması müstəqilliyin ləyaqət və şərəf işidir. Müstəqilliyin qorunub saxlanılmasında mühüm əhəmiyyət kəsb edən Azərbaycanın hərbi sənaye kompleksinin təməlini qoyan Ulu öndərin müstəqillik konsepsiyasının yaşarlılığı və müasirliyi onun mücərrəd seyrçilikdən uzaq olmasındadır.**



Ümummilli liderin dövlət quruculuğunun bütün sahələrində olduğu kimi müasir və modern Azərbaycan Ordusunun yaradılmasında da xidmətləri əvəzsizdir-məhz onun fəaliyyəti nəticəsində zamanın sınağından alnıaçıq, üzüağ çıxan milli ordumuz döyüş və mənəvi - psixoloji hazırlıq sahələrində böyük uğurlar əldə etmiş, dünyanın hesablaşdığı orduya, bu gün Azərbaycanı istənilən təcavüzdən qorumağa qadir bir qüvvə kimi günümüzün danılmaz reallığına çevrilmişdir. Bu uğuru Ulu öndərin rəhbərliyi altında azadlıq və müstəqillik ideyalarının tam təmin olunması naminə hazırlanan ordu quruculuğu konsepsiyasının təntənəsi kimi dəyərləndirmək olar.

Ümummilli liderin xalqımız üçün qoyduğu zəngin və əvəzsiz irs, ölkəmizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən çoxcəhətli, fundamental fəaliyyət proqramının əsasını, heç şübhəsiz ordu quruculuğu təşkil edir. Bu istiqamətdəki fəaliyyətin qlobal miqyası ölkəmizin keçmişinin, bugünkü reallıqlarının və gələcəyinin prizmasından olduqca əzəmətli görünür. Bütün dövrlərdə Şərqin uğurlarına qısqanclıqla yanaşan xristian dünyası hər sahədə olduğu kimi hərb sahəsində də dini ayrıseçkilik siyasətinə sadiqlik nümayiş etdirmişdir. Çar Rusiyası dövründə imperiyanın müsəlman xalqları orduda xidmətə cəlb edilmirdilər, yalnız bəy və mülkədar ailələri imperatora sədaqətlərini bildirmək üçün öz uşaqlarının hərbi xidmət keçməsinə könüllü razılıq verirdilər. Bu hal Sovetlər dövründə də davam etmiş və yalnız 1938-ci ildən sonra azərbaycanlıların ümumi hərbi xidmətə cəlb edilməsinə başlanmışdır-ancaq onlar əsasən xüsusi hərbi bilik və hazırlıq tələb etməyən hissələrə-daha çox tikinti batalyonlarına göndərilirdilər. Bu işdə özümüzün də günahı az deyildir-rüşvət müqabilində uşaqlarımızı ya hərbi xidmətdən yayındırır, ya da orduya işçi qüvvəsi kimi göndərirdik. Yalnız II Dünya müharibəsi illərində canlı qüvvəyə olan ehtiyac səbəbindən SSRİ-nin bütün müsəlman xalqları kimi azərbaycanlıların da ön cəbhəyə göndərilməsinə icazə verildi.

Bununla belə Azərbaycan xalqının hərb salnaməsi böyük qəhrəmanlıq səhifələri ilə zəngindir-xalqımızın formalaşdırdığı qəhrəmanlıq ideologiyası öz əksini qədim eposlarda belə tapmışdır. XIX əsrdə Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsindən sonra ölkəmiz ordu saxlamaqdan məhrum edildi, azərbaycanlıların çar ordusunda hərbi xidmətə çağırılması məqsədəuyğun hesab edilmədi-lakin azərbaycanlıların hərb sənətinin sirlərini öyrənmələrinin və bu sahədə yüksək mərtəbələrə çatmalarının qarşısını almaq mümkün olmadı. Çar ordusunda xidmət etmək imkanı qazanmış azərbaycanlılar müxtəlif döyüşlərdə əsl peşəkarlıq və şücaət göstərərək ad-san qazandılar. 1918-ci ilin mayında Azərbaycanın öz müstəqilliyini elan etməsi ilə Hərbi Nazirlik yaradıldı, hərbi təhsilin əsası qoyuldu. 1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyəti elan edildikdən sonra Azərbaycan SSR-in ordusu və donanması yaradıldı. 1922-ci ildə Zaqafqaziya respublikalarının orduları Xüsusi Qafqaz Ordusunun diviziyalarına çevrildi. 1937-1938-ci illərdə orduda başlanmış kütləvi repressiya kampaniyası Azərbaycan diviziyasında da özünü göstərdi-Azərbaycan diviziyası 1938-ci ildə vahid ümumittifaq ordusunun tərkibinə daxil edildi. Faşizmə qarşı müharibəyə Azərbaycandan 600 mindən çox adam səfərbər edildi-buna baxmayaraq azərbaycanlıların hərbi peşələrə yiyələnməsi yolunda ciddi maneələr yaradılırdı-ali hərbi məktəblərdə oxuyan azərbaycanlıların sayı olduqca az idi. Hətta Bakı şəhərində yerləşən ali hərbi məktəblərin kursantları arasında azərbaycanlılar çox cüzi sayda təmsil olunurdular. Sovetlər dönəmində azərbaycanlılar hərbi kadr hazırlığına və o zamankı hərbi elitaya yaxın buraxılmırdılar-Azərbaycanda bir neçə ali hərbi məktəb olmasına baxmayaraq, bu məktəblərin minlərlə kursantı arasında yalnız beş - altı nəfər azərbaycanlı var idi, onların da çoxu "beynəlmiləl" ailələrin üzvləri idilər. Şübhəsiz, bu ənənə Ulu öndəri narahat etməyə bilməzdi-onun şəxsi müdaxiləsi və qayğısı ilə 70 - ci illərdən başlayaraq Bakıdakı ali hərbi məktəblərə qəbul olunan gənclərin arasında azərbaycanlıların sayı sürətlə artmağa başladı, hərbidə də milliləşdirmə prosesinə start verildi. Milli hərbi kadr hazırlığı sahəsində ən kardinal addım Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması oldu-bu da azərbaycanlılar arasında hərbi sahəyə marağın kütləvi xarakter almasına gətirib çıxardı.

Ulu öndərin ordu quruculuğu, xüsusilə də hərbi təhsil sisteminin təməlini qoymaq istiqamətində həyata keçirdiyi tədbirlərin möhtəşəmliyi bu gün özünü daha aydın göstərir. Onun təşəbbüsü və təkidi ilə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin yaradılması, ölkənin ayrı-ayrı ali hərbi məktəblərinə göndərilən azərbaycanlı gənclərin sayının artırılması, onlar üçün qəbulda güzəştlərin tətbiqi respublikamızın gələcəyinə hesablanmış uzaqgörən siyasətin nəticəsi idi. Məhz Ümummilli lider əsası 1918 - ci ildə qoyulan ənənələri yeni tarixi şəraitdə davam etdirdi-ilk tədris ilində iki onuncu sinif komplektləşdirilmiş və məktəbə birinci qəbul 400 nəfərdən çox olmuşdur.

70-ci illərdə SSRİ-də rusların qürur duyduğu, "rus mujikinin" formalaşdığı hərbi təmayüllü iki internat-Naximov və Suvorov adına hərbi təmayüllü məktəblər var idi-tədrisin rus dilində olması və məktəblərin uzaqda yerləşməsi orada azərbaycanlıların təhsil almasını çətinləşdirirdi. Bunları nəzərə alan Ulu öndər böyük müqavimətlərə, ciddi maneələrə baxmayaraq o dövr üçün cəsarətli olan, gələcək müstəqil Azərbaycanın ordusunun təməli hesab olunan bir addım atdı-məhz Ümummilli liderin təşəbbüsü ilə Azərbaycan Maarif Nazirliyi və respublika hərbi komissarlığı Azərbaycan KP MK bürosunun 1971-ci il 29 aprel tarixli qərarını əsas götürərək, hərbi təmayüllü internat məktəbinin açılması üçün 1971-ci il iyunun 16-da müraciət hazırladı. Bu müraciət dərhal müzakirə olunur və 20 iyul 1971-ci ildə "İxtisaslaşdırılmış internat məktəbinin yaradılması haqqında" Azərbaycan KP MK bürosu qərar qəbul edir. 1971-ci ilin noyabr ayında Ulu öndərin təşəbbüsü, zəhməti və uzaqgörənliyi sayəsində, böyük əziyyətlər bahasına tarixi bir addım atıldı-Bakı şəhərindəki 2 saylı 8 illik internat məktəbinin bazasında yüzlərlə Azərbaycan vətəndaşının təhsil almağa başladığı hərbi təmayüllü məktəbin açılışı olmuş, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev bu təntənəli mərasimdə iştirak etmişdir.

1973-cü ildə hərbi təmayüllü internat məktəbinə ümumrespublika məktəbi statusu verildi. Qısa müddət ərzində (1976, 1978, 1981-ci illərdə) məktəbin fəaliyyətinin yaxşılaşdırılması, maddi-texniki bazasının genişləndirilməsi və möhkəmləndirilməsi üzrə tədbirlər haqqında mühüm qərarlar qəbul edildi və uğurla həyata keçirildi. Məktəbin məzunlarının ali hərbi məktəblərə daxil olması ilə orada təhsil alan azərbaycanlıların sayı get-gedə artmağa başladı. Məktəb ölkəmizdə hərbi peşənin nüfuzunun artmasında və gənclərimizi bu peşəyə yiyələnməyə həvəsləndirmək işində mühüm rol oynadı. Məktəbin məzunları olmayan gənclərimizin də ali hərbi məktəblərə daxil olmaları halları nəzərəçarpacaq dərəcədə artdı. Orduda peşəkar azərbaycanlı hərbçilərin nisbəti yüksəlməyə başladı.

Ümummilli lideri düşündürən əsas məsələlərdən biri də azərbaycanlı gənclərin öz Vətənini qorumaq üçün orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi olmuşdur-o taleyini hərb sənətinə, zabitlik peşəsinə həsr edənlərə böyük hörmətlə yanaşmış və həmişə onların xidmətlərini yüksək qiymətləndirmişdir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə hərbi məktəb 24 noyabr 1997-ci ildə diviziya komandiri Cəmşid Naxçıvanski adına Hərbi lisey adlandırılmışdır. Bu məktəbin milli zabit kadrların hazırlanmasında və Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna dərəcədə rolu oldu-bu gün də ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti Heydər Əliyevin yaratdığı C.Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır-onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və rəşadət göstərmişlər. Azərbaycanlı gənclərin keçmiş SSRİ-nin ali hərbi məktəblərinə daxil olmasını təmin etmək, milli hərbi kadrlar yetişdirmək məqsədi ilə yaradılan Hərbi liseyin 1998-ci və 2003-cü illərdə ölkə başçısının müvafiq fərmanları ilə 25 və 30 illik yubileyləri dövlət səviyyəsində böyük təntənə ilə qeyd olunmuşdur. 2003-cü il aprelin 21-də Ulu Öndər C.Naxçıvanski adına Hərbi Liseyin 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə hərbi təhsil ocağına olan sevgi və məhəbbətini bu sözlərlə ifadə etmişdir: "Sizə səmimi deyirəm, Cəmşid Naxçıvanski adına Hərbi Lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona, bax bu cür baxacağam".

Azərbaycan tarixinin 30 ili ərzində qazanılan bütün uğurların, siyasi, hərbi, iqtisadi, sosial-mədəni tərəqqinin rəhbəri, ilhamvericisi, təminatçısı olan Ulu öndərin vətənçilik mövqeyi iki hissədən-birincisi, şovinizmə varmadan hər bir azərbaycanlının alovlu vətənpərvərə çevrilməsinə nail olmaq, ikincisi, xalqın Vətəni şüurlu sevməsinə, tanıyaraq sevməsinə və Azərbaycanın dünyada tanınmasına nail olmaq- ibarət idi. C.Naxçıvanski adına hərbi məktəbin açılması Ulu öndərin xalqın sabahı naminə uzaqgörənliklə həyata keçirdiyi siyasətin real bəhrəsi idi. Azərbaycanlı hərbi kadrların az olması onu narahat edirdi-həmin dövrdə azərbaycanlı hərbçilərin hazırlanması yalnız Sovet ordusu tərkibində mümkün idi. Dövlətin ümumi siyasəti sayəsində orta məktəblərdə hərbi hazırlıq fənni tədris edilməyə başlandı, hərbi kadrların hazırlanmasına, hərbçilərə, hərbi vətənpərvərlik tərbiyəsinə diqqət yetirildi, 1976-1977-ci illərdən başlayaraq SSRİ-nin ali hərbi məktəblərinə ildə 800-900 nəfər gəncin göndərilməsinə nail olundu. Bu çox böyük ustalıqla, siyasi baxışlarla, dünyagörüşü ilə gələcəyə hesablanmış əhəmiyyətli məsələ Ulu öndərin xalq qarşısındakı tarixi xidmətlərindən biri idi. Gələcəkdə milli ordusunun formalaşdırılmasında güclü zabit ehtiyatı, bacarıqlı, savadlı hərbi kadrlarla zəngin olan qüdrətli ordunun yaradılması müstəqilliyin təməllərinin birinin hazırlanmasına hesablanmışdır. Bu uzaqgörən siyasətin bəhrəsi kimi bu gün mövcud olan güclü, qüdrətli, düşmənlərə layiqli cavab verən milli ordunun formalaşmasının, bacarıqlı hərbi kadrların hazırlanmasının əsası məhz böyük tarixi şəxsiyyət Heydər Əliyevin məqsədyönlü fəaliyyətinin nəticəsində mümkün olmuşdur.

1970-80-ci illərdə Azərbaycan hökuməti hərbi liseyin tədris - maddi bazasının və təlim - tərbiyə işinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş və bunun nəticəsində lisey keçmiş sovetlər birliyində analoqu olmayan təhsil ocağına çevrilmişdir-bütün bunlar, heç şübhəsiz, Heydər Əliyev kimi əsl sərkərdənin gündəlik diqqət və qayğısı sayəsində mümkün olmuşdur. Ordumuzun gələcək zabitlərinin təhsil aldığı hərbi liseydə Silahlı Qüvvələrə peşəkar, vətənpərvər kadrların hazırlanması üçün hər cür şərait yaradılmışdır.

*Ardı Səh. 12*

# Hərb tariximizdə imzası olan böyük Sərkərdə

Əvvəli Səh. 11

Bu günə qədər Hərbi liseyi minlərlə gənc bitirərək keçmiş İttifaqın müxtəlif şəhərlərində ali hərbi məktəblərdə oxumuş və xidmət etmişlər. Erməni qəsbkarları Azərbaycan torpaqlarına hücum edəndə onlar Vətənə qayıtmış və ərazi bütövlüyü uğurunda mübarizəyə qoşulmuşlar. Hərbi liseyin məzunları torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə, ordu quruculuğu prosesində fəal iştirak etmiş, Azərbaycan Respublikasına sədaqətlə xidmət edərək Vətən torpağı uğrunda cəsarətlə vuruşmuş, böyük hünər və qəhrəmanlıqlar göstərmişlər. Hərbi Liseyin yetirmələrinin əksəriyyəti dövlətimizin ərazi bütövlüyü, müstəqilliyi, dövlətçiliyi naminə şəhidlik zirvəsinə yüksəlmişlər-hərbi liseyin məzunlarından min nəfərdən çoxu göstərdikləri şücaətə görə orden və medallarla təltif olunmuş, 11 nəfəri Azərbaycanın Milli Qəhrəmanı, 19 nəfər isə Vətən Müharibəsi Qəhrəmanı fəxri adına layiq görülmüş, adlarını Azərbaycanın hərbi tarixinə əbədi həkk etmişdirlər. Ötən müddət ərzində məktəbi 10 minə yaxın gənc bitirmiş və ali hərbi məktəblərə daxil olaraq böyük ordu həyatına vəsiqə almış, Azərbaycanın hərb salnaməsinə yaddaqalan səhifələr yazmışdır. Təkcə onu demək kifayətdir ki, Qarabağ müharibəsində adıçəkilən təhsil ocağının 1500 nəfərdən çox məzunu erməni işğalçılarına qarşı vuruşlarda əsl qəhrəmanlıq nümunələri göstərmişdir. 2016-cı ilin Aprel döyüşləri zamanı erməni işğalçılarına qarşı döyüşlərdə qəhrəmanlıq və igidlik göstərənlərin arasında Hərbi liseyin məzunları olan zabitlər də olmuşdur. Silahlı Qüvvələrin elə bir sahəsi yoxdur ki, orada Hərbi liseyin məzunları xidmət etməsinlər. Eyni zamanda, respublikamızın bütün güc strukturlarında Hərbi liseyin məzunları zabit kimi Vətən qarşısında öz vəzifə borclarını şərəflə yerinə yetirirlər-Silahlı Qüvvələrimizin gələcək təcrübəli zabitləri, generalları və admiralları işıqlı sabahlara məhz bu təhsil ocağında yetişirlər. Ulu öndəri bu gün də üzərinə düşən missiyanı uğurla yerinə yetirən bu məktəbə, sözün həqiqi mənasında, çox böyük mənəvi və tarixi tellər bağlayırdı. 2022-ci ilin il iyunun 26-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı, təkcə Azərbaycanın və azərbaycanlıların deyil, bütün türk dünyasının taleyini dəyişməyə müyəssər olmuş ümumtürk miqyaslı müdrik lider olan İlham Əliyev Hərbi Liseydə olmuş, rəsmi tədbirdə Hərbi liseyin təməlinin Ümummilli lider tərəfindən qoyulduğunu diqqətə çatdırmışdır: "Bilirsiniz ki, bu məktəbin təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Onun təşəbbüsü ilə bu məktəb 1971-ci ildə yaradılmışdır. Ulu Öndər həmişə bu məktəbin fəaliyyətinə böyük diqqət göstərmişdir. Hələ o vaxt bilirdi ki, bizə milli hərbi kadrlar lazım olacaq və belə də oldu. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclülər sırasındadır. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır. Bu gün ordumuz ən yüksək səviyyədədir. Ulu Öndərin misilsiz xidmətləri Azərbaycan xalqının qəlbində daim yaşayır. Biz onun işini davam etdiririk. Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir"

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra milli nizami ordu yaradılması ən aktual məsələlərdən oldu. 1993-1995-ci illərdə ordu quruculuğu sahəsində görülmüş mühüm tədbirlər nəticəsində ayrı-ayrı siyasi partiyaların, hətta şəxslərin mənafelərinə xidmət edən silahlı birləşmələr ləğv edildi, orduda vahid komandanlıq prinsipi bərqərar edildi, möhkəm hərbi nizam-intizam yaradılması üçün ciddi tədbirlər görüldü. Silahlı Qüvvələrin peşəkar hərbçi kadrlarla təmin olunması üçün hərbi təhsil sistemi sahəsində islahatlar aparılmağa başlandı. 1990-cı ilin iyulunda Naxçıvana dönən Ulu öndər Muxtar Respublika Dövlət Müdafiə Komitəsinin yaradılması təşəbbüsünü irəli sürərək ilk Milli Ordu quruculuğuna başladı, yerli hərbi strukturlarla, incə taktika və iti strategiya ilə muxtar respublikanı işğaldan qorudu. 1993-cü ilin 15 iyununda xalqın təkidli tələbilə Azərbaycan rəhbərliyinə qayıdan Ümummilli Lider noyabrın 2-də xalqa müraciətində Milli Ordunun ayrı-ayrılıqda vuruşan dəstələrini vahid komandanlıq altında birləşməyə səslədi, postsovet məkanında qulluq edən milli zabitlərimizi - vaxtilə özünün yaratdığı C.Naxçıvanski adına Hərbi Liseyin yetirmələrini Vətənin bu ağır günlərində öz xalqı ilə bir yerdə olmağa dəvət etdi, geniş miqyaslı Milli Ordu quruculuğuna başlanıldı. Vətənə qayıdan peşəkar zabitlərimiz döyüş bölgələrində Azərbaycan əsgərini müdafiədən hücuma keçmək məqamının yetişdiyinə inandıraraq neçə-neçə əhəmiyyətli əməliyyatlar həyata keçirdilər. Müdrik rəhbərliyin nəticəsində ölkədə xalqın orduya, ordunun isə dövlətə inamı artdı. Azərbaycan əsgərinə diqqət və qayğı, hörmət və ehtiram bərqərar edildi, hərbi təhsilə önəm verilərək qəbulun sayı artırıldı, hərbi məktəblərin maddi-texniki bazası möhkəmləndirildi.

Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli Sərəncamı və Müdafiə nazirinin 09 aprel 1998-ci il tarixli əmri ilə 1998-ci ildə Naxçıvan Muxtar Respublikasında C.Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialı açılmışdır. Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2004-cü il tarixli sərəncamı ilə C.Naxçıvanski adına Hərbi liseyin Naxçıvan filialı ləğv edilmiş və onun əsasında Heydər Əliyev adına Hərbi lisey yaradılmışdır. C.Naxçıvanski və Heydər Əliyev adına Hərbi Lisey hərbiləşdirilmiş tam orta təhsil müəssisələridir-Hərbi liseydə təhsil müddəti iki ildir-tədris illəri ərzində kursantlara Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi tədris planına əsasən 13 fənn tədris edilir. Liseylərdə kursantlar ümumtəhsil fənlərini öyrənməklə yanaşı, hərbi hazırlıq və idman dərslərində qabiliyyətlərini inkişaf etdirirlər.

1999-cu ilin oktyabr ayında Ulu öndər C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan Filialının yeni tədris korpusunun təntənəli açılışında demişdi: "... Hərbi liseyin burada filialının yaradılması zərurəti bir də ondan irəli gəlir ki, tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meylli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları - Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ... Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün hərbi liseyin filialının yaradılması çox zəruri idi. ... Mən özünü bu peşəyə həsr edənləri yüksək qiymətləndirirəm, onlara öz hörmət və ehtiramımı bildirirəm... Buradakı müəllim, zabit heyətinə müvəffəqiyyət arzu edirəm... ". 2001-ci ildə Hərbi Liseyin Naxçıvan Filialının ilk 50 nəfər məzunundan 49-u ali hərbi məktəblərə daxil olmuşdur.

2002-ci ilin iyun ayında Hərbi Liseyin Naxçıvan Filialında olan Ulu öndər zabit-müəllim heyəti qarşısında böyük və məsuliyyətli vəzifələr qoyur-onlar təkcə öz peşələrilə bağlı deyil, başqa lazımlı sahələrdə də biliklərini artırmalı və bu bilikləri layiqli kadrların hazırlanmasına yönəltməlidirlər. Ümummilli lider kursantlara müraciətlə belə demişdi: "Mən sizə baxaraq Azərbaycanın gözəl gələcəyini görürəm. Azərbaycanın gələcəyi gənclərə məxsusdur. Biz Azərbaycanın gələcəyini gənclərə etibar edirik. Əziz övladlarımız, sizə etibar edirik. Siz isə bu ümidlərimizi, arzularımızı doğrultmalısınız. İnanıram ki, doğruldacaqsınız" .

2004-cü ilin iyununda Heydər Əliyev adına Hərbi Liseyin 138 nəfər məzunla ilk buraxılışı oldu. İki nəfər kursant-məzun yeni liseyin ilk fərqlənmə attestatını aldı. Ölkə başçısının xüsusi Sərəncamı ilə Heydər Əliyev adına Hərbi Lisey 2008-2009-cu dərs ilində "İlin ən yaxşı ümumtəhsil məktəbi" adına layiq görülmüşdür. Qısa tarix ərzində liseyi 5 kursant qızıl, 5 kursant gümüş, 12 kursant isə fərqlənmə attestatı ilə bitirmişdir. Onlarla məzun xarici dövlətlərdə, o cümlədən Rusiya Federasiyasında, Türkiyə və İtaliya respublikalarında təhsillərini davam etdirmiş, liseyin 7 nəfər əməkdaşı xüsusi xidmətlərinə görə müxtəlif fəxri adlar və təltiflərlə mükafatlandırılmışdır.

Bu vaxta kimi C.Naxçıvanski adına Hərbi liseyin 6522 məzunu olmuşdur-onlar Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunələri göstərmiş, Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüş, müxtəlif orden və medallarla təltif olunmuşlar. Hazırda Silahlı Qüvvələrində xidmət edən zabitlərin böyük əksəriyyətini həmin liseydə təhsil almış mütəxəssislər təşkil edir. Bu gün litseydə təhsil alan 1856 müdavimə 137 müəllim dərs deyir, 71 zabit və gizir təlim keçir. Lisey milli orduya peşəkar kadrlarla təmin etmək, gənclərimizi ali hərbi məktəblərə hazırlamaq üçün baza rolunu oynadığına görə onun fəaliyyəti həmişə diqqət mərkəzindədir.

Artıq bütün dünya etiraf edir ki, Azərbaycanın Silahlı Qüvvələri 90 - cı illərin əvvəllərindəki siyasiləşmiş silahlı dəstələr deyil, vahid mərkəzdən idarə olunan, maddi - texniki bazası, intellektual potensialı xeyli möhkəmlənmiş, istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olan bir ordudan ibarətdir. Orduya dövlətin təhlükəsizliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin qarantı kimi baxan Ulu öndərin yaratdığı ordu ilə hər bir Azərbaycan vətəndaşı sözün əsl mənasında fəxr edir. Əldə olunan uğurlar bir daha sübut etdi ki, cəmiyyətdəki siyasi plüralizm daxili qüvvələrin parçalanmasına, siyasi iddiaların həyata keçirilməsinə deyil, vahid dövlət quruculuğuna xidmət edərsə, ordu quruculuğu sahəsində dövlətin apardığı siyasət əsaslandırılmış və ardıcıl olarsa, Silahlı Qüvvələrin təşkilində və gücləndirilməsində yüksək nailiyyətlər əldə etmək olar.

Bizim ordumuzun yaranması və müasir tələblər səviyyəsində formalaşması ağır, mürəkkəb və keşməkeşli yollardan keçmişdir. Ermənı təcavüzü, daxili çəkişmələr, yeni yaradılmış özünümüdafiə taborlarının ayrı-ayrı siyasi məqsədlərə xidmət etməsi, bir tərəfdən torpaqlarımızın işğalına şərait yaratmış, digər tərəfdən ordumuzun yaranmasına mane olmuşdur. Ümummilli liderin hakimiyyətə qayıdışından sonra respublikamızın həyatının bütün sahələrində olduğu kimi ordu quruculuğu da planlı surətdə həyata keçirilməyə başladı-ilk növbədə, qanunsuz hərbi dəstələr buraxıldı, Silahlı Qüvvələr dövlət nəzarətinə alındı. Digər ölkələrin nümunələrindən və Dağlıq Qarabağ müharibəsi təcrübəsindən istifadə olunaraq mükəmməl hərbi qanunvericilik sistemi yaradıldı. Ümummilli liderin tez - tez ön cəbhəyə getməsi, döyüşən Azərbaycan əsgərləri ilə yanaşı səngərlərdə olması, onların qayğı və ehtiyacları ilə maraqlanması, döyüşdə fərqlənənləri elə yerindəcə mükafatlandırması şəxsi heyətə yeni ruh, yeni qüvvə verirdi. Məhz onun titanik fəaliyyəti nəticəsində güclü Azərbaycan ordusu yaradılmağa başlandı. Dövlət Müdafiə Şurasının ilk iclasında rüşvətxorluğa, cinayətkarlığa, Vətən qarşısında öz müqəddəs borcunu yerinə yetirməkdən boyun qaçıran şəxslərə qarşı barışmaz mübarizə aparılacağının bəyan edilməsi, çağırış və səfərbərliyin, hərbi komissarların işinin günün tələblərinə uyğun qurulması, fərarilərə, xidmətdən yayınanların hamısına qarşı ciddi sanksiyalar tətbiq olunması istiqamətində atılan qətiyyətli addımlar ordumuzun döyüş hazırlığının yüksəlməsinə səbəb oldu. Ordu quruculuğu sahəsində aparılan işlərin sistemləşdirilməsi, mərkəzləşdirilməsi, ordunun vahid komandanlıq prinsipi əsasında fəaliyyət göstərməsi öz səmərəsini verdi. Azərbaycan Ordusu tərəfindən aparılan uğurlu döyüş əməliyyatlarından təşvişə düşən və gücümüzün artmasını hiss edən düşmən 1994-cü il mayın 12 - də atəşkəs haqqında müqaviləni imzaladı. Sonrakı dövrlərdə ordumuzun daha da möhkəmləndirilməsi sahəsində bir çox mühüm tədbirlər həyata keçirildi-çağırış və səfərbərlik işi xeyli təkmilləşdirilmiş, hərbi hissələrdə intizam möhkəmlənmiş, qanun-qaydalara tam riayət olunması təmin edilmişdir. Bütün bunlar orduya gələn gənclərin peşəkar hərbi qulluqçu kimi hazırlanmasına, hərbi ixtisaslara dərindən yiyələnməsinə şərait yaratmışdır. Silahlı Qüvvələrin döyüş qabiliyyətinin yüksəldilməsi, peşəkarlığının artırılması fasiləsiz bir proses oldu-döyüş hazırlığı məsələlərinə ciddi önəm verilməsinin nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələri hal - hazırda istər quruda, istər havada, istərsə də dənizdə hər hansı döyüş tapşırığını layiqincə yerinə yetirməyə qadirdir.

Müdrik insan və siyasət korifeyi olan Ümummilli liderin xalqın qarşısındakı əvəzedilməz xidmətlərindən biri də müstəqil dövlətimizin müdafiə qüdrətinin ardıcıl olaraq möhkəmləndirməsi idi. Hələ Sovet imperiyasının dünyaya meydan oxuduğu dövrdə milli zabit kadrlarının gələcək dövlətçilik baxımından vacibliyini nəzərə alaraq onların yetişdirilməsi istiqamətində məqsədyönlü addımlar atmağa başlamışdı-onun təşəbbüsü ilə hərbi məktəbin yaradılması böyük hünər və cəsarət tələb edirdi. Digər müttəfiq respublikaların heç birində belə bir ixtisaslaşmış orta məktəb yox idi. Məktəbin məzunları müxtəlif ali hərbi məktəblərə göndərilir, beləliklə gələcək milli zabit korpusu yaradılırdı. 90-cı illərdə Qarabağ müharibəsində atəşkəs əldə olunduqdan və "Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycanda ordu quruculuğu sahəsində əsil canlanma başlandı-hərbi təhsilə diqqət artırıldı, mövcud hərbi təhsil müəssisələrinin fəaliyyəti müasir standartlara uyğun olaraq yenidən quruldu, güc nazirliklərinin nəzdində yeni hərbi akademiyalar yaradıldı-bütün bunlar Ümummilli liderin xalqımızın bu gününə və gələcəyinə verdiyi töhfələrdən biridir.

Ulu öndər ordu quruculuğuna elmi prinsiplər əsasında yanaşaraq qısa vaxt ərzində bu mühüm prosesi dövlət quruculuğunun tərkib hissəsinə çevirdi, hərbi hissələri siyasiləşmiş qüvvələrdən təmizlədi, ordu ilə xalqın vəhdəti, orduda mərkəzləşdirilmiş komandanlıq prinsipi tam təmin edildi. Silahlı Qüvvələrin maddi - texniki təminatı möhkəmləndirildi, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırıldı, tam elmi-nəzəri prinsiplər üzərində qurulan Silahlı Qüvvələr keyfiyyətcə yeni bir mərhələyə qədəm qoydu.

Ulu öndər ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra respublikanın müharibə vəziyyətində olmasını nəzərə alaraq ordu quruculuğu istiqamətində məqsədyönlü nəhəng tədbirlər həyata keçirmiş, ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşdırılmışdır. Silahlı Qüvvələrə tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin istehsal olunması üçün sifarişlərin respublikanın müdafiə sənayesi müəssisələrinə verilməsi ölkə iqtisadiyyatının inkişafına da şərait yaratdı. 2003 - cü ildə ordumuzun hərbi - texniki bazasını gücləndirmək və bu sahədə kənardan asılılığı azaltmaq məqsədilə Ümummilli lider tərəfindən "Azərbaycan Respublikası müdafiə sənayesi müəssisələrinin 2003 - 2005 - ci illərdə inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi ilə respublikanın müdafiə sənayesinin inkişafının yeni mərhələsi başlandı-bu istiqamətdə aparılan məqsədyönlü işlər bu gün də uğurla həyata keçirilir. Müdafiə Sənayesi Nazirliyinin yaradılmasına dair Prezidentin imzaladığı 16 dekabr 2005 - ci il tarixli sərəncamından sonra nazirliyin bir neçə müəssisəsi əsaslı tikinti və yenidənqurmadan sonra istifadəyə verilmiş, "İqlim" Elmi İstehsalat Müəssisəsi, "Telemexanika", "Peyk", "Alov", Elektron Hesablayıcı Maşınlar və "Radioqurașdırma" zavodları, eləcə də Elmi-Tədqiqat İnstitutu, "Dalğa" Elmi İstehsalat Müəssisəsi, Şirvan "Araz" zavodu öz fəaliyyətlərini uğurla davam etdirmişlər. İstifadəyə verilən müəssisələrdə silahlı qüvvələri müasir tələblərə cavab verən müdafiə təyinatlı məmulatlarla və xalq təsərrüfatını maşınqayırma, cihazqayırma, elektrotexnika, rabitə sahələrində istifadə olunan avadanlıq və ehtiyat hissələri ilə təmin etmək üçün onlarca yeni istehsalat sahələri yaradılmış və bu sahələr beynəlxalq standartlara cavab verən avadanlıq və texnologiyalarla təmin edilmişdir.

Ardı Səh. 13

# Hərb tariximizdə imzası olan böyük Sərkərdə

Əvvəli Səh. 12

Ümummilli lider Silahlı Qüvvələrimizin daha da möhkəmlənməsi, hərbi kadrlar hazırlayan hərbi təhsil sisteminin modernləşməsi üçün strateji xarakterli tədbirlər həyata keçirdi-1999-cu il fevralın 20-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması, 20 avqust 2001 - ci ildə respublikada fəaliyyət göstərən hərbi məktəblərin statusunun artırılması və nəhayət, 17 avqust 2002 - ci ildə Silahlı Qüvvələrə Yardım Fondunun yaradılması haqqında imzaladığı fərmanların nəticəsidir ki, hazırda Azərbaycanda güclü maddi-tədris bazasına, müasir texnologiyalara malik, yeni tədris metodları ilə fəaliyyət göstərən, uğurları ölkəmizin sərhədlərindən də uzaqlara yayılan hərbi təhsil sistemi mövcuddur. Bu gün Azərbaycanın ali hərbi məktəblərində bir sıra xarici ölkələrin nümayəndələri təhsil alırlar. Ümummilli liderin 1993 - cü ilin noyabrında Əfqanıstan müharibəsi iştirakçılarının könüllü cəbhəyə yollanmaq istəyənlərin bir qrupu ilə, hərbi hissələrdən birinin təlim mərkəzində şəxsi heyətlə görüşləri orduda mənəvi əhval-ruhiyyənin güclənməsinə, gənclərdə hərbi - vətənpərvərlik hisslərinin formalaşmasına müsbət təsir göstərmişdir.

Hər bir ordunun qüdrətli - onun döyüş qabiliyyəti ilə mənəvi gücünün vəhdətində reallaşır-bu gün cəmiyyətində, eləcə də orduda Ümummilli lider tərəfindən hazırlanmış və zamanın sınağından çıxmış mükəmməl hərbi vətənpərvərlik konsepsiyası mövcuddur-hərbi qulluqçularda Vətənə, xalqa, dövlətçiliyə sədaqət və məhəbbət hisslərinin möhkəmləndirilməsi, onların ümumdövlət mənafeləri ətrafında səfərbər edilməsi, ordunun müasir NATO standartlarına uyğun qurulması bu istiqamətdə aparılan fəaliyyətin əsas məqsədləridir. Ulu öndərin Avropaya inteqrasiya siyasəti NATO ilə sıx əməkdaşlığı vacib etmişdir-bunun üçün Azərbaycanda yetərli potensial mövcud idi. Azərbaycanda ali hərbi məktəblər sisteminin yaradılması, onun tədris prosesinin NATO - ya üzv olan ölkələrin hərbi təhsil sisteminin üstünlüklərinə uyğun olaraq qurulması nəticəsində ordumuz ciddi, hazırlıqlı, vətənpərvər zabit kadrları ilə təchiz edildi, ordunun maddi - texniki bazası möhkəmləndirilir. Yüksək ixtisaslı milli hərbi kadr hazırlığı istənilən məkan və zaman şəraitində ordu quruculuğu prosesinin obyektiv tələbidir-hərbçi peşəsinin incəliklərinə yiyələnmiş zəruri sayda peşəkar kadr olmadan ordu quruculuğu kimi çətin bir işi uğurla həyata keçirmək mümkün deyildir.

Ordu quruculuğunda aparılan kompleks işlərin nəticəsində qısa müddət ərzində ordu quruculuğunun qanunvericilik bazası yaradıldı, "Silahlı Qüvvələr haqqında ", "Hərbi xidmət haqqında ", "Müdafiə haqqında", "Hərbi qulluqçuların statusu haqqında" və s . qanunlar qəbul edildi. Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin qurulması və genişlənməsi də məhz ümummilli liderin adı ilə bağlıdır. 1994 - cü il may ayının 4 - də Azərbaycan Respublikası NATO - nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmuş, 1996 - cı ilin aprel ayında isə Azərbaycan Prezidenti NATO - nun Baş katibinə Azərbaycanın prezentasiya sənədlərini təqdim etmişdir. Azərbaycan dövləti bu istiqamətdə keçirilən tədbirlərdə fəal iştirak edir-Silahlı Qüvvələrimizin sülhməramlı taqımı Türkiyə Respublikası Silahlı Qüvvələrinin sülhməramlı taborunun tərkibində 1999 - cu ilin sentyabr ayından Kosovoda, 2002 - ci ilin noyabr ayından Əfqanıstanda, 150 nəfərdən ibarət sülhməramlı bölüyü isə 2003 - cü ilin avqust ayından ABŞ Silahlı Qüvvələrinin kontingenti tərkibində İraqda sülhməramlı missiyanı yerinə yetirmişdir. Azərbaycan ilə NATO arasında hər il fərdi əlaqələndirmə proqramı hazırlanır və təsdiq edilir-bu da Silahlı Qüvvələrimizin NATO standartlarına uyğunlaşdırılması, mərkəzləşdirilmiş maddi - texniki bazasının yaradılması, hərbi təhsil sisteminin yeni prinsiplər əsasında qurulmasına əsaslı zəmin yaratmışdır. Bütün bunları nəzərə alan Ümummilli lider yüksək kürsülərdən dəfələrlə demişdir: "Ötən illər ərzində ordumuz gücləndi, inkişaf etdi və bu gün, demək olar ki, bizim ordumuz çox yüksək səviyyədədir. Qarşıda duran bütün vəzifələri həll etməyə qadir ordudur".

1999-cu il fevralın 20-də Prezidentin Fərmanı ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyası yaradıldı-2001-ci il avqustun 20-də Prezidentin Azərbaycan Ali Hərbi Məktəbi, Ali Hərbi Dənizçilik Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbi ilə bağlı Fərmanı imzalandı.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən, orta ixtisas təhsili, ali və əlavə təhsil proqramlarını həyata keçirən, tətbiqi elmi tədqiqatlar aparan xüsusi təyinatlı ali təhsil müəssisəsi olan Heydər Əliyev adına Hərbi İnstitut Ali Hərbi Məktəbin hüquqi varisidir. Prezidentinin 10 mart 2004-cü il tarixli fərmanına əsasən, məktəb Ümummilli Lider Heydər Əliyevin adını daşıyır. Prezidentin 24 dekabr 2015-ci il tarixli sərəncamına əsasən, Azərbaycan Ali Hərbi Təyyarəçilik və Ali Hərbi Dənizçilik məktəbləri ləğv edilmiş, Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hava Hücumundan Müdafiə və Hərbi Dəniz Qüvvələri fakültələri yaradılmaqla Ali Hərbi Məktəbə birləşdirilmişdir. Xüsusi təyinatlı tədris müəssisələri şəbəkəsinin fəaliyyətini təkmilləşdirmək məqsədilə Prezidentin 5 mart 2022-ci il tarixli, 1626 nömrəli fərmanı ilə Heydər Əliyev adına Ali Hərbi Məktəbin əsasında Heydər Əliyev adına Hərbi İnstitut yaradılaraq Milli Müdafiə Universitetinin tabeliyinə verildi.

Heydər Əliyev adına Azərbaycan Hərbi İnstitutun tarixi 1918-ci il martın 1-də Tiflis şəhərində Milli Hərbiyyə Məktəbinin açılması ilə başlayır. Məktəb 1918-ci il aprelin 2-də Tiflisdən Gəncəyə köçürüldü-1918-ci ilin iyununda Gəncədə ilk hərbi məktəb yaradıldı. 1918-ci il oktyabrın 27-də Milli Hərbiyyə Məktəbinin ilk buraxılışı oldu. 1918-ci il dekabrın 1-dən Milli Hərbiyyə Məktəbi Praporşiklər Məktəbi adlandırılaraq məzunlarına ilk zabit rütbəsi verdi. 1919-cu ilin oktyabrından Praporşiklər Məktəbi yenidən Hərbiyyə Məktəbi adlandırıldı-1920-ci ilin mayından Hərbiyyə Məktəbi Azərbaycan Birləşmiş Hərbiyyə Məktəbi adlandırıldı. 1930-cu ilin noyabrında Zaqafqaziya Hərbi Hazırlıq Məktəbi yenidən formalaşdırılaraq Bakı Piyada Məktəbi adlandırılmışdır.

Böyük Vətən müharibəsində Bakı Piyada Məktəbi cəbhəyə doqquz mindən artıq gənc zabit kadrları hazırlayaraq yola salmışdır. Bakı Piyada Məktəbinin 22 məzunu bu müharibədə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Sovet İttifaqı Qəhrəmanı adı almış 22 məzundan üçü -Həzi Aslanov, Ziya Bünyadov, Aslan Vəzirov-azərbaycanlı olmuşdur. Bakı Piyada Məktəbinin 1952-ci ildə buraxılan zabit kadrlarının yalnız 34 faizini azərbaycanlılar təşkil etmişdir. 1958-ci ildə hərbi məktəblər orta təhsil sistemindən ali təhsil sisteminə keçdilər-məktəbin adı dəyişilərək Bakı Ali Ümumqoşun Komandanlıq Məktəbi adlandırıldı.

1992-ci ilin aprel ayından məktəb Azərbaycan Respublikasının hüquqi tabeliyinə keçirilmişdir. Motoatıcı qoşunlar üçün zabitlərdən başqa məktəb on üç peşə üzrə zabitlər hazırlamağa başlamışdır-Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin kursantları erməni təcavüzkarlarının törətdiyi Qarabağ müharibəsində, Müstəqil Azərbaycanın bütövlüyünün və suverenliyinin qorunmasında fəal iştirak etmişlər. 2016-cı ilin Aprel döyüşləri zamanı erməni təcavüzünün qarşısını layiqincə dəf edən məktəbin 20 məzunu şəhidlik zirvəsinə ucalmışdır.

27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ müharibəsinə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin 500-dən çox kursantları və zabit-gizir heyəti də qatılmışdır. Hazırda respublikamızın Silahlı Qüvvələri və qanunvericilikdə nəzərdə tutulmuş digər hərbi birləşmələr üçün müxtəlif kateqoriyadan olan hərbi kadrların hazırlanması Azərbaycan Ali Hərbi Məktəblərində, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində, Hərbi Akademiyasında və digər hərbi təhsil müəssisələrində uğurla həyata keçirilir. 1997 - ci ildən bu məktəblərdə NATO standartlarına uyğun tədris proqramı tətbiq olunur. 1994 - cü ilin mayından Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin zabitləri NATO - nun strateji və regional qərargahlarında müxtəlif vəzifələrə təyin edilmişlər. Hərbçilərimiz sülhməramlı, humanitar və digər çoxmillətli təlimlərin planlaşdırılması, hazırlanması və həyata keçirilməsində yaxından iştirak edirlər. Son illərdə NATO - nun müxtəlif tədbirlərində Azərbaycan Silahlı Qüvvələrinin yüzlərlə nümayəndəsi iştirak etmişdir. NATO - nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində respublikamızda bir neçə çoxmillətli komandaqərargah təlimləri keçirilmişdir. "Kooperativ Determineyşn", "Regional cavab - 2009" kimi təlimlərdə NATO üzvü və tərəfdaş dövlətlərdən nümayəndələr iştirak etmişdir.

Azərbaycan Respublikası öz müstəqilliyini elan etdikdən sonra xarici dövlətlərlə hərbi sahədə əməkdaşlıq haqqında onlarla saziş, protokol və plan imzalanmışdır. Ən müasir silahlarla təchiz olunan Azərbaycan Ordusunun şəxsi heyəti üçün həmin silahlardan istifadə edilməsi təlimi həm ölkə daxilində, həm də ölkəmizdən kənarda keçirilir. Hər il Azərbaycan Ordusunun yaradılması ilə bağlı keçirilən hərbi parad və Azərbaycanın Silahlı Qüvvələrinin və qanunvericilikdə nəzərdə tutulmuş digər hərbi birləşmələrin iştirakı ilə keçirilən birgə əməliyyat - taktiki təlimlər əksər dövlətlərin Azərbaycan ordusu haqqında təsəvvürlərinin yaxşı mənada dəyişməsinə səbəb olmuşdur. Silahlı Qüvvələrin kompleksləşdirilməsi, hərbi çağırış sisteminin müasir tələblər səviyyəsində təkmilləşdirilməsi üçün görülmüş işlərin nəticəsidir ki, orduda xidmət bu gün hər bir Azərbaycan gənci üçün fəxr nümunəsinə çevrilmişdir. Ordu üzərində ictimai nəzarət sistemi yaradılmışdır, Azərbaycanda ordu quruculuğu yüksələn xətlə inkişaf edir, ordunun problemləri hər an respublika rəhbərliyinin diqqət mərkəzindədir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev dövlət başçısı kürsüsündə fəaliyyətə başladığı ilk günlərdə bəyan etmişdi ki, ordu quruculuğu sahəsində qazanılan nailiyyətlərin bütün parametrlər üzrə daha da inkişaf etdirilməsi onun fəaliyyətində prioritet istiqamətlərdən biridir.

Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, hərbi qulluqçuların sosial müdafiəsi sahələrində həyata keçirilən tədbirlər, onların sosial müdafiəsinin gücləndirilməsi, mənzil - məişət şəraitinin yaxşılaşdırılması Ali Baş Komandanın Vətənin müdafiəçilərinin şərəfli xidmətinə verilən yüksək qiymətin göstəricisidir. Hərbi hissələrdə, hərbi təhsil müəssisələrində baş verən neqativ halları aşkara çıxarmaq, hüquqları pozulmuş hərbi qulluqçuların sosial müdafiəsini daha da gücləndirmək, onların ərizə və şikayətlərinə baxılması işini daha da təkmilləşdirmək məqsədi ilə Müdafiə Nazirliyinin Tərbiyəvi İşlər İdarəsində "Etimad xətti" fəaliyyət göstərir: hərbi qulluqçular sutka ərzində müvafiq telefonlara zəng vuraraq onları narahat edən məsələlər barədə məlumat vermək, habelə müraciətlərini elektron poçtuna göndərmək imkanı qazanmışlar. Son illərdə ölkənin müdafiə xərclərinin bir neçə dəfə artırılması, hərbi qulluqçuların sosial problemlərinin ardıcıl olaraq həll edilməsi yaxın gələcəkdə ordu quruculuğu sahəsində daha böyük uğurlar qazanılacağına təminat verir-ölkə başçısının Silahlı Qüvvələrin şəxsi heyətinə diqqət və qayğısı, ordumuza bəslədiyi yüksək inam və etimad hərbçilər tərəfindən qürur hissi ilə qarşılanır. Möhkəm təməl üzərində bərqərar olan müdafiə sənayemiz Silahlı Qüvvələrimizi hərbi sursatla tam təmin etməyə qadirdir. Azərbaycan ordusu bu gün dövlətin qüdrətinin nümunəsidir, xalqımızın iftixar yeridir və ölkəmizin ərazi bütövlüyünü təmin etmək iqtidarında olan yüksək hazırlıqlı təsisatdır-beynəlxalq hərbi tədqiqat mərkəzlərinin verdiyi qiymətə görə, regionun ən hazırlıqlı və ən müasir ordusu Azərbaycan ordusudur.

Hərbi-texniki əməkdaşlıq sahəsində də bir sıra mühüm işlər həyata keçirilmişdir. Belə ki, Müdafiə Sənayesi Nazirliyi yarandığı zaman respublikamız sahə üzrə yalnız Türkiyə Respublikası ilə əməkdaşlıq edirdisə, bu gün aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş 20 - dən çox dövlətinin 50 - dən çox firma və şirkəti ilə sıx əməkdaşlıq edir. Müdafiə Sənayesi Nazirliyinin tabeliyindəki müəssisələrdə yaradılan və istehsal olunan 27 adda müdafiə təyinatlı məmulatla ("İstiqlal" tipli snayper tüfəngi, atıcı silahlar üçün müxtəlif növ döyüş sursatları, artilleriya minaları və optik cihazlar və. s) respublikamızın beynəlxalq sərgidə təmsil olunması qısa müddət ərzində görülmüş işlərin nəticəsidir. Azərbaycanı qüdrətli dövlət kimi görmək istəyən Ümummilli lider tərəfindən ötən əsrdə əsası qoyulan bir qurumun bu gün dünyanın 70 - dən çox ölkəsinin dövlət qurumları və qabaqcıl şirkətləri tərəfindən istehsal olunan məmulatların sərgiləndiyi məkanda öz milli məhsullarını nümayiş etdirməsi qürurverici haldır. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, əməkdaşlıq sahəsində əldə olunmuş bu uğurlar Prezident İlham Əliyevin apardığı xarici siyasətin nəticəsidir. Bu gün cənab İlham Əliyevin başçılığı ilə Azərbaycanın hərtərəfli yüksəlişi, dünyaya inteqrasiyası və güclü siyasəti şübhəsiz ki, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin ictimai-siyasi fəaliyyəti, dövlət quruculuğunda oynadığı rolu, müstəqil Azərbaycanın varlığı və inkişafı üçün hazırladığı mükəmməl təməli İlham Əliyevin şəxsində öz layiqli davamçısını tapmışdır-XXI əsrin qalib sərkərdəsi Qarabağ zəfəri ilə bütün dünyaya türkün gücünü sübut etdi, bu yalnız güclü siyasi iradə və xalqına arxalanan dövlət başçısının əldə edə biləcəyi zəfər idi. Ona görə də böyük fəxarət və qürurla deyə bilirik - Azərbaycanın Müzəffər Ali Baş Komandanı, qalib Ordusu və sarsılmaz birliyi var-bu amillər bölgədə danılmaz yeniliklər və reallıqları şərtləndirir.

Azərbaycanda hərbi quruculuq bu gün də yüksələn xətlə inkişaf edir-vaxtilə Ümummilli liderin həyata keçirdiyi strateji əhəmiyyətli tədbirlər və ənənələr bu gün ordu quruculuğu işini prioritet sahə elan edən, ordu problemlərini hər an diqqət mərkəzində saxlayan, Silahlı Qüvvələrin döyüş hazırlığının artırılmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi dəyərləndirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələr Ali Baş Komandanı cənab İlham Əliyev uğurla davam etdirilir. Azərbaycan hərbçiləri əsl qurucusu Ümummilli liderimiz olan Silahlı Qüvvələrin sıralarında yüksək döyüş hazırlığına yiyələnərək ləyaqətlə xidmət edəcək, həm ölkə rəhbərliyinin, həm də bütövlükdə xalqımızın inam və etimadını doğruldacaqlar.

Müasir Azərbaycanın həyatının hər sahəsində təzahür etmiş bütün yeniliklərin, inkişafa yol açmış qlobal dəyişikliklərin müəllifi, əfsanələri həqiqətə çevirən, neçə əsr əvvəlki hadisələri və layihələri yeni tarixi şəraitdə canlandıran, yaradan Ulu öndər xalqı səfərbər etməklə öz arxasınca apararaq mürəkkəb xarici-siyasi vəziyyətdə, yeni dünya düzəninin tələblərini və geosiyasi reallıqları nəzərə almaqla Azərbaycan dövlətinin milli inkişaf strategiyasını müəyyənləşdirdi və elmi-siyasi, tarixi cəhətdən əsaslandırdı. Bu strategiya Azərbaycan Respublikasını milli-mənəvi dəyərlərin inkişafı, demokratik dövlətçiliyin möhkəmlənməsi, vətəndaş cəmiyyəti, insan hüquqlarının təminatı, siyasi plüralizmin bərqərar olması, Avropaya inteqrasiya və bəşəri dəyərlərdən bəhrələnmə yoluna çıxarmışdır-bu gün Azərbaycan bu yolda inamla və ardıcıl surətdə irəliləyir.

***Yaşar Əhmədov***
***Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Humanitar fənlər" kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru***

### Ynet: ”ABŞ-ın hərbi kəşfiyyatı: ”İran Qafqazdakı təsirini artırmağa səy göstərir”







İsrailin aparıcı informasiya portalı olan Ynet İranın Qafqaza təsirləri barədə geniş xarakterli məqalə ilə çıxış edib. ABŞ-ın hərbi kəşfiyyatına əsaslanan və özündə bir sıra regional məsələləri əks etdirən məqalədə bildirilir ki, Tehranın bu cəhdlərinə baxmayaraq, Rusiya bunda maraqlı tərəf deyil. Məhz Qafqaz iddiaları Moskva ilə Tehran arasındakı münasibətlər baxımından toqquşur.

Sözügedən informasiyanın hələ fevralın 23-də amerikalıların hərbi kəşfiyyatında fəaliyyət göstərən analitiklər tərəfindən hazırlanmış gizli sənəddə yer aldığı bildirilir. Lakin bu yaxınlarda Pentaqonda saxlanılan gizli sənədlərin ”çölə” sızması nəticəsində həmin məsələlər ictimailəşib. Bu baxımdan, İsrailin Ynet xəbər portalı bu sənədin bəzi məqamlarını dərc edib.

# İsrail mediası İranın Qafqaz təhlükəsi barədə yazdı





TOP SECRET//SI-G//ORCON/NOFORN/FISA

Iran/Russia | Challenges Persist in Bilateral Relationship Despite Recent Progress

STATUS OF KEY CHALLENGES IN THE IRAN-RUSSIA RELATIONSHIP

ECONOMIC ISSUES | PUBLIC PERCEPTIONS | MUTUAL DISTRUST | NUCLEAR ISSUES | REGIONAL COMPETITION

IRAN-RUSSIA RELATIONSHIP HAS VARIED SINCE THE START OF THE RUSSIAN INVASION OF UKRAINE

### ABŞ MKİ: ”İndiyə qədər İsrail HHQ-nin fevralın 20-də keçirdiyi təlimləri barədə informasiya yayılmamışdı”

SİTAT: ”Fevralın 20-də İsrailə məxsus hərbi hava qüvvələri (HHQ) İranın nüvə obyektlərinə zərbələrin endirilməsi ilə bağlı iri-miqyaslı təlimlər keçiriblər. Bu barədə informasiya ABŞ-ın Milli kəşfiyyat idarəsinin əməkdaşları tərəfindən tərtib edilmiş gizli sənəddə bildirilir. İndiyə qədər İsrail HHQ-nin fevralın 20-də keçirdiyi təlimləri barədə informasiya yayılmamışdı”.

”Sənəddə qeyd olunur ki, bununla bağlı Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) İsrailin yaxın zamanlarda İranın nüvə obyektlərinə zərbələr endirməsi barədə xəbərdar olmayıb, eləcə də İsrail rəhbərliyinin müvafiq məsələdəki ümumi məqsədləri haqqında da məlumatsız olub”, deyə nəşr bildirir.

Lakin buna baxmayaraq, Ynet portalı İsrailin baş naziri Netanyahuya istinadən qeyd edir ki, İsrail və ABŞ İrana qarşı müqavimətdə birgə səylərini davam etdirəcəklər. Baş nazir bu fikirlərini Yerusəlimdə ABŞ-ın dövlət katibi Blinkenlə görüşü zamanı deyib.

Ynet İran-Rusiya münasibətlərindəki digər məqamlara da toxunub və ABŞ-ın hərbi kəşfiyyatının artıq açığa çıxmış sənədlərindəki məlumatlardan bəzilərini diqqətə çatdırıb. Misal üçün, məlum olub ki, Rusiya Federasiyası İrana ABŞ-ın FGM-148 tank əleyhinə raketlərini ötürüb. Belə ki, həmin raketlər rusların əlinə Ukraynadakı müharibədə keçib. İranlılar raket komplekslərinin təkmilləşdirilməsi üzərində işə başlayıblar.



Bütün bu faktların isə nəinki regiona, həm də dünyaya bir təhdid olduğunu yazan İsrail mediası həmin təhlükələrin aradan qaldırılması istiqamətində işlərin daha səmərəli təşkil olunması vacibliyinə toxunur. O cümlədən, İranın Yaxın Şərq və Cənubi Qafqazdakı rolunun azaldılması üçün əməli tədbirlərə keçilməsini qeyd edir.

***Rövşən RƏSULOV***

# “Azərbaycan ordusu erməni təxribatlarının qarşısını almağa hazırdır”

**“Ermənilərin 10 noyabrdan sonra törətdikləri bütün təxribatların qarşısı Müzəffər ordumuzun qətiyyəti sayəsində uğurla alınıb. Hər dəfə də erməni tərəfi rüsvayçı cavab alıb”. Bunu Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Anar Xəlilov ”Səs” qəzetinə açıqlamasında deyib.**



Onun sözlərinə görə, ermənilərin böyük ” bacıları” Fransanın üstünə ağlamaqdan başqa yolları olmayıb: ”Azərbaycan ordusu erməni təxribatlarının qarşısını almağa daim hazırdır və eyni zamanda, bu təxribatlara birdəfəlik son verməyin yolunu da bilir. Lakin müzəffər Ali Baş Komandan İlham Əliyev bu gün gedən sülh prosesinə sadiqdir və əsl siyasətçi olaraq bir daha erməniləri dinc yaşamağa dəvət edir. Lakin ermənilər ona uzadılan bu humanist addımlara bu cür təxribatla cavab verməl追 davam etdirsələr, Ali Baş Komandan ordumuzun gücü ilə ”Dəmir yumruğu” necə və nə zaman endirməyin zamanını uzatmadan ermənilərin başına endirəcəkdir. Çox təəssüflər ki, xain erməni təxribatları zamanı gənc hərbçilərimiz də şəhid olmuşlar. Allah onlara rəhmət eləsin! Ailələrinə səbr arzulayır və analarının qarşısında baş əyirəm”.

***GÜLYANƏ***

# “Ermənistan boş vədlər naminə öz suverenliyini itirir”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*

## Rusiyalı politoloq: "Ermənistanın Qarabağda təxribatçı fəaliyyətinə baxmayaraq, Azərbaycan istənilən vasitə ilə öz ərazilərinin tam geri qaytarılmasına nail olacaq"

Rusiya Beynəlxalq Əlaqələr Şurasının aparıcı eksperti, tanınmış politoloq Aleksey Naumov ”Caliber” analitik mərkəzinə müsahibəsində Ermənistanın apardığı qeyri-konstruktiv siyasətin səbəblərini və nəticələrini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.






***- Ermənistan rəhbərliyinin Rusiya Federasiyasına qarşı son təxribat xarakterli bəyanatlarına siyasi qiymətiniz necədir? Bu, İrəvan üçün nə deməkdir?***

- Son illər İrəvan, şübhəsiz ki, hər cür təxribatçı bəyanatlarla Rusiyanın səbrini sınayır- istər KTMT, istər Roma Nizamnaməsi, istərsə də NATO təlimləri ilə bağlı və s. Hətta bəzən Ermənistan siyasətçilərinin Rusiyanı bir daha qıcıqlandırmamaq üçün bir az geri çəkilib öz sözlərini geri götürmək cəhdlərinin də şahidi oluruq. Lakin Rusiya Federasiyasına qarşı təxribat xarakterli bəyanatların Ermənistan üçün nəticələrindən danışırıqsa, hesab edirəm ki, onlar heç nə ilə, ən azı təfərrüatlı bəyanatlarla dolu deyil. Birincisi, ona görə ki, Moskva ilə İrəvan arasında münasibətlərin dinamikası onsuz da mənfidir və bu günə kimi heç bir dərin siyasi və strateji məna daşımayıb. İkincisi, Moskvaya açıq şəkildə qarşı çıxmağı özünə rəva görən İrəvan Rusiya üçün o qədər də dəyərli deyil və onun qeyri-qanuni hərəkətləri yalnız özü üçün siyasi məzar qazır.

Üstəlik, Rusiya ilə Ermənistan arasında müttəfiqlik münasibətləri böhran içində olduğu və getdikcə söndüyü bir vaxtda Rusiya-Azərbaycan əməkdaşlığı yalnız möhkəmlənir. Bakı ilə Moskva arasında iri layihələrin, məsələn, Şimal-Cənub nəqliyyat dəhlizinin və s.-nin təşviqində heç bir fikir ayrılığı yoxdur. Ermənistan isə əksinə, öz siyasi gələcəyini qazır. Ona görə də orta və ya uzunmüddətli perspektivdə İrəvanın Rusiyanın imtiyazlı müttəfiqi kimi qeyri-rəsmi statusunu mütləq itirəcəyi göz qabağındadır.

***- Rusiya Federasiyası İrəvanın narazılığına baxmayaraq, Ermənistan-Azərbaycan sərhədində KTMT missiyasını yerləşdirməyə nail olacaqmı?***

- Bəli, mən hesab edirəm ki, KTMT missiyasının sərhəddə yerləşdirilməsi mümkündür və təşkilata üzv olan digər ölkələrin mövqeyini nəzərə alsaq, İrəvanın etirazı heç bir əsas rol oynamayacaq. Mən proqnozlaşdırıram ki, İrəvana yanaşma tapılacaq və bu missiya öz şəxsi maraqlarından çıxış edərək regionda sülh istəməyən erməni qüvvələrinin hər hansı pozuntularını qeydə ala biləcək.

***- KTMT missiyası ilə bağlı İrəvana yanaşma tapılacağını dediniz, bəs bu, regiondakı vəziyyətə necə təsir edəcək? Axı, çox güman ki, Ermənistan bundan sonra hərbi təxribatlardan əl çəkməyəcək...***

- Bəli, mütləq. Ermənistandakı müxtəlif növ elitaların əksəriyyəti barışıq və ölkənin regionun iqtisadi və siyasi formatlarına reinteqrasiya ediləcəyi təqdirdə sadəcə olaraq bütün əhəmiyyətini itirəcək. Bunlar müharibə istəsələr də, 2020-ci il hadisələrinin göstərdiyi kimi buna yararsız olan insanlardır. Ona görə də hesab edirəm ki, ötən həftə olan təxribatlar kimi hadisələrin baş verəcəyi mümkündür. Ermənistanın Qarabağda təxribatçı fəaliyyətinə baxmayaraq, Azərbaycan istənilən vasitə ilə öz ərazilərinin tam geri qaytarılmasına nail olacaq. Unutmayın ki, Ermənistanın Azərbaycan və Rusiyanın xoşməramlılığı ilə 5 il müddətinə aldığı möhlət tezliklə bitəcək. Və əgər Ermənistan beynəlxalq münasibətlərdə proqnozlaşdırıla bilən və danışıla bilən iştirakçı olduğunu sübut etməsə, o halda daha onunla diplomatik dildə dayanmayacaqlar.



***- Sizcə, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Türkiyəyə son səfərindən sonra Türkiyə-Ermənistan münasibətlərinin normallaşması istiqamətində hər hansı irəliləyiş mümkündürmü?***

- Düşünürəm ki, Lavrovun Türkiyəyə səfəri zamanı danışıqların əsas mövzusu Ukrayna münaqişəsi, taxıl sövdələşməsi, ikitərəfli münasibətlər və s. ilə bağlı vəziyyət olub. Amma bu o demək deyil ki, Qarabağ nizamlanması və Türkiyə-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı məsələlər arxa planda idi. Çox güman ki, onlar əlavə müzakirəyə ehtiyac duymurlar, çünki bu istiqamətdə işlər gündəlik, normal rejimdə gedir. Amma taxıl sövdələşməsi ilə bağlı hər şey qaydasında deyil, Qərbin Rusiya taxılının daşınması ilə bağlı öhdəliklərini yerinə yetirməməsi problemi var.

Türkiyə-Ermənistan münasibətlərinə gəlincə, onların normallaşması, eləcə də Azərbaycan tərəfindən ərazi bütövlüyünün tam bərpası qaçılmazdır. Digər tərəfdən, indiki mərhələdə Rusiya Federasiyası ilə Türkiyə arasında münasibətlər güclüdür və onu təkcə iki ölkə liderləri arasında yaxşı təmaslar deyil, həm də iqtisadi fayda və məqsədəuyğunluq diktə edir. Biz başa düşürük ki, bu gün Türkiyə paralel idxal üçün mühüm mərkəzdir, Rusiya Federasiyasının əhəmiyyətli ticarət tərəfdaşıdır, xüsusən də atom elektrik stansiyasının tikintisi, hərbi sektor və turizm kimi sahələrdə.

***- Türkiyə-Ermənistan sərhədinin açılması barədə nə düşünürsünüz?***

- Ermənistan-Türkiyə sərhədinin açılması Bakı ilə İrəvan arasında sülh sazişi ilə bağlı olacaq. Türkiyə Azərbaycanı tərk etməyəcək, Ermənistan təxribatçı hücumlarını davam etdirsə, sərhəd açılmayacaq. Hesab edirəm ki, bu, regionda sülhün bərqərar olması istiqamətində mühüm addımlar atılandan sonra baş verəcək ki, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanmaq üzrə olduğu aydın olsun.

***- Bakı ilə İrəvan arasında ortamüddətli perspektivdə sülh sazişinin bağlanmasını mümkün hesab edirsinizmi?***

- İnanıram ki, bu il Paşinyan ölkəni öz nəzarətində saxlaya bilib-bilməyəcəyini və öz siyasi kursunu davam etdirə bilib-bilməyəcəyini göstərəcək. Prinsipcə, Ermənistanın baş naziri adekvat siyasətçilərdən biridir, lakin digərlərinin fonunda və o, həqiqətən də ölkəsinin gələcəyini düşünürsə, zamanın az olduğunu və sülh sazişinin təcili imzalanmasının vacibliyini bilməlidir. Xatırladım ki, hələ ilin əvvəlində Azərbaycan Prezidenti İlham Əliyev xəbərdarlıq etmişdi ki, sülh təşəbbüsləri indi danışıqlar masasındadır, lakin onlar orada sonsuza qədər qalmayacaq. Ermənistana isə bunu başa düşmək lazımdır.

***- Aİ missiyasının Ermənistanda yerləşdirilməsi ilə bağlı narahatlığınız varmı? Bu, hansı riskləri ehtiva edir?***

- Avropa İttifaqı Qafqaz siyasətini həyata keçirərkən regionu sakitləşdirmək, onu tam iqtisadi və beynəlxalq münasibətlərə qaytarmaq maraqlarından çıxış etmir. Aİ xarici siyasətini ilk növbədə Rusiya ilə qarşıdurmaya yönəldir və Ermənistan və Azərbaycanı Rusiya Federasiyası ilə çəkişdirməkdə, yorğanı öz üzərinə çəkməkdə maraqlıdır. Ona görə də Aİ missiyası çox güman ki, Ermənistanın təxribatlarına göz yumacaq və lazım gələrsə, Rusiya sülhməramlılarını bəzi vəhşiliklərdə ittiham etmək üçün ona sülh prosesini uzatmağa imkan verəcək. Ümumiyyətlə, Aİ missiyasının Ermənistanda olması onu deməyə əsas verir ki, bu ölkə öz suverenliyini boş vədlər üçün verməkdə davam edir və onun təhlükəsizliyini təhlükə altına qoyan əlavə qüvvələrin regiona nüfuz etməsinə pəncərə açır.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
19 aprel
2023-cü il

## Neftin 88 dollara düşməsi ölkə iqtisadiyyatına necə təsir edir?



“Neftin qiymətinin 88 və ya 85 dollara düşməsi müəyyən zaman intervalında eniş-yoxuşların və ya dalğalanmaların baş verməsi normal bir haldır”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov bildirib. İqtisadçı-ekspertin sözlərinə görə, burada hər hansısa bir ciddi narahatçılıq yoxdur: ”Nəzərə almaq lazımdır ki, Azərbaycan nefti büdcədən götürülmüş səviyyəsindən 50 faiz daha baha satılır. Ona görə də hər hansısa bir təşvişə ehtiyac yoxdur. Digər tərəfdən isə bu il üzrə ortalama neft qiymətlərinin həddi təxminən 90 dollar ətrafında formalaşacaqdır. Yəni 80-90 dollar intervalında dəyişmələrin daha tez-tez şahidi olacağıq. Ümumilikdə isə neftin qiymətinin hətta 80 dollara belə düşməsi insanlarda narahatçılıq yaratmamalıdır”.

*Banuçiçək Hüseynli*

# Repetitorluq ləğv edilsə nələr baş verər?

**“Repetitorluq ləğv olunarsa, plan yerinin dəfələrlə aşağı qəbulun şahidi olacağıq. Bu da minlərlə plan yerinin boş qalması ilə nəticələnəcək bir prosesdir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi deyib.**



Onun sözlərinə görə, bugün Azərbaycanda fəaliyyət göstərən 4 min 440-dan çox tam və ümumi orta təhsil müəssisələri fəaliyyət göstərir: ”Burada demək olar ki, 1 milyon 600 mindən çox şagird təhsil alır və yalnız yuxarı sinif şagirdləri (əsasən 9-10-11-ci sinif şagirdləri) bu şəxslər müvafiq imtahan göstəriciləri üçün məhz repetitorlara (hazırlıq kursları, hazırlıq mərkəzləri və tədris mərkəzlərinə) borcludurlar.

Bu gün hər hansı 5 şagirdin müvafiq olaraq əldə etdiyi uğur məktəbin adına yazılmamalıdır. O baxımdan ki, bugün yalnız bir neçə məktəb, yeni barmaqla sayılacaq sayda məktəblər olar ki, onlar müvafiq olaraq yüksək bal toplayan bir şagird çıxarda bilər. Amma o yüksək bal da bizim nəzərdə tutduğumuz 600-dən yüksək olmur. Yəni, təxminən 600 bala qədər istisna halda 1-2 nəfər şagird ola bilər. Amma qalan bütün yüksək nəticə göstərənlərin hər biri məhz hazırlıq kurslarının, tədris mərkəzlərinin, repetitorların nəticələridir”.

Elçin Əfəndi sözlərinə belə davam edib: ”Biz repetitorluğu ləğv edə bilmərik. Amma repetitorluğun bir qanun, yaxud bir çərçivəyə salınması üzərində iş gedir və düşünürəm ki bunu tənzimləyə bilərik. Vergidən yayınma halları və digər məsələlər olmaması üçün bir növ bu məsələnin leqallaşdırılması, yeni, qanunileşdirilməsi lazımdır və bunula bağlı da bildiyim qədərilə də iş görülür. Bu da bir növ artıq onu deməyə əsas verir ki, təhsil artıq ödənişli əsaslarla keçir. Yəni, bugün Azərbaycan reallığı ondan ibarətdir ki, valideyn övladının təhsilini məktəbdə ala bilmir, ona görə məcburdur kənardan əldə etsin və yaxud da qəbulun formatı o qədər çətindir ki, bir şagird 6-7 fəndən imtahan verib ali məktəbə qəbul olursa, deməli, artıq məktəb proqramı ilə qəbul proqramında müəyyən bir uyuşmazlıq, çətinlik varsa, o zaman valideyn ələcsızlıqdan övladının daha yaxşı nəticə qazanması üçün məcburdur təhsili kənarda axtarsın. Kənarda axtardığı təhsil də ödənişli əsaslarla mümkündür. Bu isə onu deməyə əsas verir ki, təhsil artıq ödənişli həddə çatır. Bu məktəblərin qarşıdakı dövr üzrə publik statusu alarlarsa, o zaman artıq ölkədə demək olar ki, böyük əksəriyyət təhsil müəssisələri ödənişli əsaslarla fəaliyyət göstərər. Bu da bir qədər məktəbin təhsilə qayıtması ilə də nəticələnə bilər. Yenə də aidiyyəti qurumlar təbii ki bunların üzərində işlər görür. Amma bütün bunlar isə repetitorluğu ləğv edək anlamı vermir. Düzdür, repetitorluq son 10-15 il ərzində daha da geniş vüsət alıb. Əvvəlki dövrlərə biz nəzər salsaq hətta 1995-1996, ondan əvvəlki dövrlərdə də hətta məsələn, 80-90-cı illərdə hər hansı bir şagird hansısa fəndən bilikləri zəif idisə, onlar da o fəndən hansısa müəllimin yanına gedib müəyyən biliklər qazanırdılar. Yəni o dövrün də repetitorluğu var idi. Amma bu qədər tüğyan eləmirdi, bu qədər geniş yayılmamışdı. Amma hal-hazırkı dövrü biz müqayisə etsək və bu qədər repetitorluğa hazırlıq kursları tədris mərkəzlərinə ehtiyacın yarandığını nəzərə alsaq deyə bilərik ki, bəli, bugün məktəblərdə verilən təhsil kifayət etmir və məcburiyyət qarşısında valideynlər artıq bu təhsil metoduna, təhsil üsuluna üstünlük verirlər”.



**MÜTƏXƏSSİS AÇIQLADI**

*Ayşən Vəli*

## Üç növ kağız və karton gömrük rüsumundan azad edilir

Azərbaycana idxal olunan daha 3 növ kağız və karton - sonrakı emala məruz qalmamış və ya emal olunmuş rulonlarda və ya vərəqlərdə digər təbaşirlənməmiş digər kağız və karton, sulfitli sarğı kağızı və 1 m2-nin kütləsi 150 q-dan az olan rulonlarda və ya vərəqlərdə təbaşirlənməmiş kraft-kağız və kraft-karton gələn il yanvarın 1-dən 5 faiz gömrük rüsumundan azad edilir. SİA xəbər verir ki, bu, Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə edilən dəyişiklikdə əksini tapıb.



Beləliklə, 1 yanvar 2024-cü ildən qüvvəyə minəcək qərar 31 dekabr 2030-cu ilədək qüvvədə olacaq. Qeyd edək ki, hazırda yarımsellülozdan büzmə üçün kağız, saman kütləsindən büzmə üçün kağız idxal gömrük rüsumundan azaddır.

# “Ailədəki hər bir insan üçün fitrə zəkatı çıxarılmalıdır”

**“Şəriət baxımından dinimizdə fitrə zəkatı buğda, un və s. kimi minimum ərzaqdan hesablanır. Amma insanlar fitrə zəkatı kimi orta səviyyədə ərzaq çıxarsa, daha yaxşı olar. Fitrə zəkatı yoxsullara, möhtac olan insanlara verilir ki, onlara verilən pulla öz ehtiyaclarını ödəsinlər”. Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev deyib.**

Onun sözlərinə görə, bugünkü gündə ölkəmizdə imkansız ailələr az deyil: ”Qazilər, şəhid ailələri, qonşuluqda və ya qohum-əqrəbada elə kasıb adamlar var ki, onları mütləq nəzərə almaq lazımdır. Fitrə zakatı bu cür insanlara verilməlidir. Bayram günü qapı-qapı dolaşıb dilənçilik edənlərə fitrə zəkatı vermək olmaz. Qafqaz Müsəlmanları İdarəsi olaraq hər il tövsiyə edirik ki, yaşından, oruc tutub-tutmamasından asılı olmayaraq ailədəki hər bir insan üçün fitrə zəkatı çıxarılsın. Bu, ailə başçısının boynuna bir haqq, dini əmrdir və icra olunmalıdır”.



Qurum rəsmisi sözlərinə davam edərək bildirib ki, fitrə zəkatı minimum 10-15 manat çıxarıla bilər: ”Əgər ailənin imkanı yoxdursa, amma fitrə zəkatı çıxarmaq istəyirsə, eybi yoxdur gücü çatan qədər çıxara bilər. Amma ümumiyyətlə, ailəsini çətinliklə dolandıran, əlində olan maddi imkan ilə ailəsinin son təminatlarını edən insanlar fitrə zəkatı çıxarmazlar. Yəni, onların boynunda haqq yoxdur.

Fitrə zəkatını bayram axşamı çıxarırlar. Bayram namazı qılınana, ən uzağı zöhr namazına qədər zəkatın yoxsullara, kasıblara çatdırılması məsləhət görülür. 21 aprel 2023-cü il tarixində Ramazan bayramı olacağı üçün ayın 20-si fitrə zəkatını çıxaracağıq”.

*Ləman Əlizadə*

### ELAN

ARPİİ-nin ”Aqrokompleks”müəssisəsi tərəfindən Orucov Nurlan Elxan oğluna verilmiş 58 N-li xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
”ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4000